31_27 IYUl-QARA.qxd 8/21/2025 11:46 PM Page 1


# UNİKAL

№31 (2261) 22 avqust 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az




# Sahil Babayev yenidən tənqid hədəfində

***2018-ci ildə əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsinə gətirildikdən bir il sonra vətəndaşların ən çox şikayətləndiyi iri məmurlardan birinə çevrilən Sahil Babayev, deyəsən, öz "rekordunu" yeniləyib: maliyyə naziri təyin olunmasından heç yarım il keçməmiş yeni postundakı fəaliyyətinə görə sərt tənqidlərə tuş gəlməyə başlayıb!***

Bu ilin fevralında maliyyə naziri təyin edilən Babayev hələ apreldə Maliyyə Nazirliyi dövlət büdcəsi vəsaitlərinin daha səmərəli idarə olunması üçün xəzinə hesabının milli valyutada olan sərbəst qalığının yerli banklarda yerləşdirdiyini bəyan etmiş, öncə 1 milyard manatı 4 sistem əhəmiyyətli bankda, 2 həftə sonra isə 500 milyon manat həcmində sərbəst qalığı ölkənin 5 ən iri bankında yerləşdirmiş, bunun ardınca ekspertlərin iradları ilə üzləşmişdi. Babayev və komandası banklar arasında ayrı-seçkilikdə günahlandırılmışdı. Məsələn, iqtisadçı deputat Vüqar Bayramov bildirmişdi ki, belə selektiv yanaşma bank sektoru üçün arzuolunan deyil: "Çünki bu sektorda təmərküzləşmə baxımından daha çox diskrimativ effekt yarada bilər". O, əlavə etmişdi ki, heç bir Səh.6

# Prezident Kəlbəcərdə mühüm mesaj verdi: "Sülh müqaviləsinin müəllifi bizik"



Səh.3

# "Rusiya Azərbaycanın Ermənistanla sülhə nail olunmasını qəbul edə bilmir"



***Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini, deputat Azər Badamov "Unikal"a müsahibə verib. O, son vaxtlar Rusiyada diaspora rəhbərlərinə qarşı kampaniyaya başladılmasından, Ukraynada olan Azərbaycana məxsus enerji infrastrukturuna zərbələr endirilməsindən...***

Səh.4

# Azərbaycanda internet kiberhücuma görə kəsildi - Rəsmi



***Ötən gün bəzi internet telekommunikasiya operator və provayderlərinin xidmətlərində müvəqqəti ləngimələr müşahidə olunub. Bu barədə "Unikal"a Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən (RİNN) bildirilib. Məlumata görə, ölkəyə internet trafiki təqdim edən əsas "backbone" operatorlardan biri olan...***

Səh.9

# Teymur Musayev çətin suallar qarşısında



***Teymur Musayevin rəhbəri olduğu Səhiyyə Nazirliyi ictimaiyyəti təəccübləndirməyə davam edir. Həm təəccübləndirir, həm də təəssüfləndirir. Niyəsini bir qədər sonra yazacağıq. Əvvəlcə onu deyək ki, sosial şəbəkələrdə özünü "doktor Gülü Abdullayeva" kimi tanıdan Gülbədə Abdullayeva əməliyyat...***

Səh.8

# "Ulduz"u sönən məşhurlar - Qətl, şantaj, dələduzluq...



***Müğənni Rəqsanə İsmayılovanın qəfil həbsi gündəmin əsas mövzularından birinə çevrilib. Cəmiyyətin bir qismi sənət adamının hansısa cinayətlə bağlılığını qəbul etməsə də, bundan əvvəl də müxtəlif incəsənət nümayəndələrinin məhkum edildiyi faktları var.***

"Qafqazinfo" mövzunun aktuallığını nəzərə alaraq zaman-zaman yolu məhkəmə və həbsxanalara düşən tanınmış sənətçiləri yada salır:

**Fədayə Laçın**

Bu günə qədər həbsi ilə böyük rezonans yaradan sənətçilərdən biri Fədayə Laçın olub. Fədayənin "Qoca" ləqəbli Etibar Məmmədovun həbsdən qaçmasına kömək edərkən tutulması həmin dövrdə böyük müzakirələrə yol açmışdı. Müğənni bu cinayətinə görə ömrünün 2 ilini dəmir barmaqlıqlar arasında keçirdi.

**Rəşad Dağlı**

Qonşusunu qətlə yetirən meyxanaçı Rəşad Dağlının cinayəti də sensasiya yaratdı. Dağlı bu əməlinə görə 9 il 6 ay həbslə cəzalandırıldı. Artıq 3 ildir həbsdə olan meyxanaçı hazırda cəzaçəkmə müəssisəsində qalan illərinin keçməsini gözləyir.

**Cavid Sumqayıtlı, Mahir Ay Brat**

Meyxanaçılar Cavidlə Mahir ikisi də narkotik cinayətinə görə məhkum edilib. Sumqayıtlı 7 il 6 aylıq həbsə göndərilsə də, Mahir məhkumluğunu şərti keçirir.

**Elşad Xose**

Məşhur repçi Elşad Xose də narkotikə görə həbsdə yatıb.

**Aqil M.Quliyev**

Tanınmış rejissor bir vaxtlar məhkəmə qərarını icra etməməkdə təqsirli bilinərək 1 il 6 ay həbsə məhkum olunub.

**Rza Rzayev**

"Draqon" kimi tanınan Rza Rzayev xuliqanlığa görə 2 il müddətinə azadlıqdan məhrum edilib. Gimnaziya direktoru olan Tural Mirzəliyevə xəsarət yetirməkdə təqsirləndirilən aktyor bu yaxınlarda azadlığa buraxılıb.

**Ağadadaş Ağayev**

Hazırda məhkumluğu davam edən ən məşhur sənətçilərdən biri Xalq artisti Ağadadaş Ağayevdir. Baltanı cinayət alətinə çevirib xuliqanlıq edən müğənniyə bu yaxınlarda 2 illik şərti cəza verilib.

**Samir Cavadzadə**

Azərbaycanın "Eurovision-2008" təmsilçisi Samir Cavadzadə dostunu bıçaqladığı üçün cinayət məsuliyyətinə cəlb edilib. O, 48 saat saxlanıldıqdan sonra nəzarət şərti ilə sərbəst buraxılıb. İstintaqın sonunda cinayət işinə xitam verilib.

**Vüsal Əliyev**

Bir vaxtlar gənclərin ən çox sevdiyi müğənnilərdən biri olan Vüsal Əliyev dələduzluğa görə cinayət məsuliyyətinə cəlb edilib. Bir müddət axtarışda olan ifaçı Bakıya qayıdanda tutulmuşdu. İstintaq onun azyaşlı uşaqlarının olduğunu nəzərə alaraq uzunmüddətli həbslə cəzalandırmayıb.

**Təranə Səmədova**

Bir çox tanınmış müğənnilərə prodüserlik edən Təranə Səmədova da hazırda məhkumdur. Səmədovaya şantaja görə 6 il həbs cəzası verilib.

**Dəniz Əsədova**

Ən yaxın müddətdə həbs edilən müğənni isə Dəniz Əsədovadır. Qalmaqallı müğənni böhtana görə 8 ay "içəridə" qalacaq.

**Azər Zahid**

Daim incəsənət nümayəndələrinin içində olan, Tik-Tokda yarışmalar təşkil edən aparıcı Azər Zahid də cinayət məsuliyyətinə cəlb edilənlər siyahısına daxildir. Çirkli pulları yuma, qumarxana təşkil etmə ittihamları ilə bir neçə ay həbsdə qalan aparıcı bu yaxında ev dustaqlığına buraxılıb.

Sadaladıqlarımız yalnız cinayət işləri ilə bağlıdır. Lakin bu günə qədər inzibati qaydada həbs edilən məşhurlar da çoxdur - Manaf Ağayev, Tunar Rəhmanoğlu, Elşən Xəzər, Orxan Lökbatanlı kimi.

Nəticədə isə kimliyindən asılı olmayaraq qanun qarşısında hamı bərabərdir...



## "Ölü yaddan çıxır, plov müzakirəyə qoyulur"

***"Cənazə insan evinə vaxtlı, vaxtsız düşür. İnsan öz dərdi ilə qala bilmir. Düşünə bilmir ki, dərdimi çəkim, ölümü ağlayım, yoxsa gəlib-gedəni yola salım. Bizdə adət var idi ki, yası düşənin evində 1 həftə yemək bişmirdi. Hamı bişirib gətirirdi. Kimsə də dana kəsir, hər evə bir az ət və halva göndərirdi. Gözəl addımdır. Bir həftəyə ölü sahibi özünə gəlməyə başlayır".***

Axşam.az xəbər verir ki, bu sözləri şair Nazilə Səfərli yaydığı videoda deyib. O, yas mərasimlərində yemək verilməsini tənqid edib:

"İndi yas yerində toyuq, badımcan ləvəngisi qoyulur. Bunun qarşısı alınmalıdır. Ərəb ölkəsində qapıda üyüdülmüş qəhvə qoyulur. Ondan bir qaşıq dilinin altına qoyursan. Gəlib demirlər, filankəsin halvası dadlı idi. Ölü yaddan çıxır, plov müzakirəyə çıxır. Laş yas yerində yemək yığışdırılsın. Ölü yiyəsi yemək halına qalmamalıdır".

## Məhkəmə Rəqsanə İsmayılova ilə bağlı qərar verdi

***Müğənni Rəqsanə İsmayılova barəsində seçilmiş həbs qətimkan tədbirinin dəyişdirilməsi ilə bağlı apellyasiya şikayətinə baxılıb.***



"Unikal"ın məlumatına görə, Bakı Apellyasiya Məhkəməsində keçirilən prosesdə Rəqsanə İsmayılovanın şikayəti təmin olunmayıb.

Müğənni barədə birinci instansiyanın seçdiyi həbs qətimkan tədbiri qüvvədə saxlanılıb.

Qeyd edək ki, avqustun 16-da Sabunçu rayonunda polis əməkdaşlarının vətəndaşlardan daxil olan şikayətlər əsasında həyata keçirdikləri tədbirlər nəticəsində dələduzluq etməkdə təqsirli bilinən 1979-cu il təvəllüdlü İsmayılova Rəqsanə İsmayıl qızı saxlanılıb.

Araşdırmalarla müəyyən edilib ki, o, iki nəfər zərərçəkən şəxsin ümumilikdə 35.000 manat dəyərində qızıl-zinət əşyalarını və 520.000 ABŞ dolları məbləğində pulunu dələduzluqla ələ keçirib.

Qeyd edilən faktlarla bağlı Sabunçu Rayon Polis İdarəsində Cinayət Məcəlləsinin xüsusilə külli miqdarda ziyan vurmaqla dələduzluq etmə maddəsi ilə cinayət işi başlanılıb və R.İsmayılova təqsirləndirilən şəxs qismində saxlanılaraq istintaqa cəlb olunub. Onun barəsində məhkəmənin qərarı ilə 4 ay müddətində həbs qətimkan tədbiri seçilib.

31_27 IYUl-QARA.qxd 8/21/2025 11:41 PM Page 3



# Generalın yerinə Ülvi Zülfüqarov rəis təyin edildi



***Dövlət Gömrük Komitəsində yeni təyinat olub.***

"Unikal"ın əldə etdiyi məlumata görə, bununla bağlı DGK sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov müvafiq əmr imzalayıb.

Əmrə əsasən, gömrük xidməti polkovniki Ülvi Zülfüqarov Əməliyyat-İstintaq Baş İdarəsinin rəisi təyin edilib.

Ü.Zülfüqarov 2012-ci ildə Prezident İlham Əliyev tərəfindən "Dövlət qulluğunda fərqlənməyə görə" medalı, 2016-cı ildə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

Qeyd edək ki, bundan əvvəl həmin vəzifədə gömrük xidməti general-mayoru Güloğlan Muradlı olub. G.Muradlı Azərbaycan Respublikası Prezidentinin 13 fevral 2025-ci il tarixli müvafiq Sərəncamı ilə Dövlət Gömrük Komitəsi sədrinin müavini vəzifəsinə təyin edilib.

***Anar Kəlbiyev***

# Əhməd Məmmədlinin məhkəməsi başlayıb

***Bakıda baş verən insidentlə bağlı saxlanılan ictimai fəal Əhməd Məmmədlinin cinayət işi bağlı məhkəmənin hazırlıq iclası keçirilib.***

"Unikal" APA-ya istinadən xəbər verir ki, bu gün Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Vüqar Seyidovun sədrliyi ilə keçirilən prosesdə anket məlumatları dəqiqləşdirilib.

Ə.Məmmədlinin vəkili Elçin Sadıqov məhkəməyə vəsatət verərək cinayət işinə xitam verilməsini və müdafiə etdiyi şəxsin barəsində seçilmiş həbs qətimkan tədbirinin ev dustaqlığı ilə dəyişdirilməsini xahiş edib.

Vəsatətlər təmin edilməyib. Prosesdə cinayət işinin məhkəmə baxışına verilməsi ilə bağlı qərar qəbul edilib. Baxış iclası sentyabrın 3-nə təyin edilib.

Qeyd edək ki, Əhməd Məmmədlinin Biləcəridə baş verən insidentlə bağlı saxlanıldığı bildirilir.

Məlumata görə, mayın 6-da1988-ci il təvəllüdlü Dünyamalıyev Vüqar Rasim oğluna Biləcəri qəsəbəsi R. İsmayılov küçəsində qarın boşluğundan bıçaqla xəsarətlər yetirilib. Keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törədən şəxsin 2001-ci il təvəllüdlü Məmmədli Əhməd Vüqar oğlu olduğu müəyyən edilib və o, saxlanılıb.

Faktla bağlı Binəqədi Rayon Polis İdarəsində Cinayət Məcəlləsinin 126-cı maddəsi ilə cinayət işi başlanılaraq istintaq aparılıb.

İlkin məlumata görə, hadisəyə taksidə yer üstündə mübahisə səbəb olub. Əhməd Məmmədli barəsində Binəqədi Rayon Məhkəməsinin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

# PTX-nın mayoru vəfat etdi

***Prezidentin Təhlükəsizlik Xidmətinin (PTX) əməkdaşı, mayor Erkin Ələkbərov vəfat edib.***

Bakıvaxtı.az-ın əldə etdiyi məlumata görə, Erkin Ələkbərov 36 yaşında dünyasını dəyişib.

Qeyd edək ki, Erkin Ələkbərov Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi və Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alıb, daha sonra Milli Qvardiyada xidmət edib.

Onu da bildirək ki, Erkin Ələkbərov Azərbaycan Milli Karate yığmasının üzvü, Dünya və Avropa çempionatlarının bürünc mükafatçısı və İslam Oyunlarının qızıl medalçısı Tural Ələkbərlinin qardaşıdır.

E.Ələkbərovun ölümünün səbəbi barədə hələlik rəsmi açıqlama verilməyib.

# Teymur Musayev çətin suallar qarşısında

## Səhiyyə Nazirliyinin planlı və plandankənar yoxlamaları ilə bağlı ilginc iddialar - Gözdənpərdə asmaq, yoxsa...

***Teymur Musayevin rəhbəri olduğu Səhiyyə Nazirliyi ictimaiyyəti təəccübləndirməyə davam edir. Həm təəccübləndirir, həm də təəssüfləndirir. Niyəsini bir qədər sonra yazacağıq.***

Əvvəlcə onu deyək ki, sosial şəbəkələrdə özünü "doktor Gülü Abdullayeva" kimi tanıdan Gülbədə Abdullayeva əməliyyat proseduru ilə bağlı qeyri-etik görüntülər yayıb. Görüntülərdə qadın xəstənin bədəni çılpaq halda nümayiş olunub. Gülbədə Abdullayeva isə əməliyyat zamanı həmkarları ilə oynayaraq videoçəkiliş edib. Sosial şəbəkə istifadəçiləri adıçəkilən xanımın əvvəl saç ustası olduğunu bildiriblər.

Bunun ardınca Səhiyyə Nazirliyi geniş bir məlumat yayıb. Məlumat ənənəvi, şablon sözlərlə, özünütərif ruhunda cümlələrlə başlayır: "Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi tərəfindən vətəndaşların həyat və sağlamlığına real təhlükə yarada biləcək hallarla bağlı daxil olan müraciətlər əsasında araşdırmalar aparılır və qanunvericiliyə uyğun olaraq plandankənar yoxlamalar həyata keçirilir". Ardınca da əlavə edilir ki: "Sosial şəbəkələrdə yayılan videogörüntülərdə adı hallanan Abdullayeva Gülbədə Əlqismət qızının adı Səhiyyə Nazirliyinin Tibb işçilərinin vahid reyestrində mövcud deyil və tibbi fəaliyyətlə məşğul olmaq səlahiyyəti yoxdur.

Daxil olan sorğularda əməliyyatın "Dost Estetik Mərkəzi"ndə keçirildiyi bildirilir. Digər müraciətdə isə həmin şəxsin "UĞUR Estetik Mərkəzi 777" adlı müəssisədə çalışdığı qeyd olunur. Hər iki müəssisə tibb müəssisəsi deyil və müvafiq tibbi fəaliyyət göstərmək üçün lisenziyaları yoxdur.

"Dost Estetik Mərkəzi"nin adı Analitik Ekspertiza Mərkəzinin özəl tibb müəssisələrinin bazasında, eləcə də Dövlət Vergi Xidmətinin Vergi uçotuna alınmış vergi ödəyiciləri barədə məlumat bazasında mövcud deyil.

Araşdırma zamanı müəyyən edilib ki, sahibkar Xəyalə Aydın qızı İsmayılovaya məxsus "UĞUR Estetik Mərkəzi 777" lisenziya olmadan tibbi fəaliyyət göstərir. Yoxlama zamanı kosmetoloji xidmətlər göstərilən, tibbi avadanlıqlarla təchiz edilmiş otaqlarda pasiyent qəbulu və prosedurların icrası faktları aşkarlanıb. "UĞUR Estetik Mərkəzi 777" ilə bağlı AEM tərəfindən 2023-2025-ci illər ərzində dəfələrlə plandankənar yoxlamalar aparılıb, aşkar edilən pozuntularla bağlı ümumilikdə 5 inzibati protokol tərtib edilərək Azərbaycan Respublikasının "İnzibati Xətalar Məcəlləsi"nin 210.1-ci maddəsi üzrə cərimə olunması barədə qərar qəbul olunub.

Göstərilənlərlə yanaşı, müəssisə lisenziya olmadan fəaliyyətini davam etdirdiyindən, Səhiyyə Nazirliyi tərəfindən hüquq-mühafizə orqanları qarşısında vəsatət qaldırılaraq Xəyalə Aydın qızı İsmayılovaya məxsus "UĞUR Estetik Mərkəzi 777" müəssisəsinin qanunsuz fəaliyyətinin araşdırılması ilə bağlı müraciət edilib".

Elə təəccüb və təəssüf doğuran da rəsmi məlumatdakı bir neçə məqamdır. Birincisi, nazirlik qeyd edir ki, vətəndaşların həyat və sağlamlığına real təhlükə yarada biləcək hallarla bağlı daxil olan müraciətlər əsasında araşdırmalar aparılır, ardınca da əlavə edir: "Sosial şəbəkələrdə yayılan videogörüntülərdə..." Yeri gəlmişkən, bu, ilk hal deyil, Səhiyyə Nazirliyinin hansısa sosial şəbəkə paylaşımından, videogörüntüsündən sonra hərəkətə keçməsi artıq xeyli adiləşib. Belədə "daxil olan müraciətlər" ifadəsi nə qədər yerinə düşür? Axı açıq-aydın şəkildə görünən odur ki, əgər vətəndaşlar sosial şəbəkələrdə, mediada hansısa qanunsuzluğu, özbaşınalığı ifşa etməyənədək Səhiyyə Nazirliyindən səs çıxmır. Kənardan baxana da elə gələr ki, səhiyyə sahəsində güllük-gülüstanlıqdır. Nazirlik rəhbərliyindən soruşmaq pis olmazdı: məsul olduğunuz sahədəki qanunsuz, özbaşına əməllərin ifşası və aradan qaldırılması üçün illah ki, vətəndaşlar videogörüntü yaymalıdır, sosial şəbəkədən paylaşım etməlidir? Vətəndaşlar bu istiqamətdə fəallıq göstərməsə, onda belə çıxır ki, Səhiyyə Nazirliyi də məsul olduğu sahədəki nöqsanları görməzdən gəlməyə davam edəcək?



İkincisi, cəmi bir neçə ay öncə Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzi rəsmi açıqlama yaymışdı ki, adı çəkilən qurum tərəfindən istənilən klinikada çalışan həkim və tibb personalının sənədləri planlı və plandankənar yoxlamalar zamanı yoxlanılır. Belədə sual yaranır: bir halda ki, planlı və plandankənar yoxlamalar aparılır, bəs onda bu qədər lisenziyasız tibb müəssisəsi, tibb işçilərinin vahid reyestrində mövcud olmayan bu qədər adam necə fəaliyyət göstərir? Niyə onların qanunsuz fəaliyyəti Səhiyyə Nazirliyinin fəxrlə bəyan etdiyi planlı, yaxud plandankənar yoxlamalar zamanı deyil, hansısa vətəndaşın mediada, sosial şəbəkədəki şikayətindən, paylaşımından sonra ortaya çıxır? Ola bilərmi ki, həmin yoxlamalar bir çoxlarının düşündüyü kimi formal xarakter daşıyır, bir növ gözdən pərdə asmaq üçündür və vətəndaşların həyatına, sağlamlığına real təhlükə yarada biləcək halları aradan qaldırmağa yox, kimlərinsə maraqlarını təmin etməyə hesablanıb?

Teymur Musayev və rəhbərlik etdiyi nazirlik üçün bu suallara cavab verməkilk baxışda elə də çətin olmamalıdır. Lakin nəzərə alsaq ki, Səhiyyə Nazirliyinin iş prinsiplərinə eynilə Oqtay Şirəliyevin zamanında olduğu kimi, özünütərif ruhu, problemlərə ögey münasibət hakimdir, onda bu qurumdan hansısa suala obyektiv cavab gözləmək əbəs işdir...

***Sənan Mirzə***

31_27 IYUl-QARA.qxd 8/21/2025 11:42 PM Page 4



# Azərbaycanda internet kiberhücuma görə kəsildi - Rəsmi

## Osman Gündüz: "Mövcud siyasi konteksti nəzərə alsaq, bu hücumun mənbəyinin Rusiyadan ola biləcəyi ehtimalı istisna edilmir"



***Ötən gün bəzi internet telekommunikasiya operator və provayderlərinin xidmətlərində müvəqqətiləngimələr müşahidə olunub.***

Bu barədə "Unikal"a Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən (RİNN) bildirilib. Məlumata görə, ölkəyə internet trafiki təqdim edən əsas "backbone" operatorlardan biri olan "Delta Telekom"a qarşı DDoS tipli genişmiqyaslı kiberhücum həyata keçirilib.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən ölkəmizdə internet xidmətlərinin davamlılığı planı çərçivəsində internet provayderləri dərhal alternativ "backbone" operatorlarının şəbəkəsinə yönləndirilib.

Qısa müddət ərzində istifadəçilərin internetə çıxışı təmin olunub. Atılan addımlar nəticəsində "Delta Telekom"a qarşı kiberhücumun qarşısı qısa müddət ərzində alınıb. "Delta Telekom"un xidmətləri bərpa olunub.

Azərbaycan İnternet Forumunun rəhbəri Osman Gündüz bildiib ki, Azərbaycan internetində qısa müddətlik problemlər müşahidə olundu: "İstifadəçilər internet bağlantısında və müxtəlif resurslara çıxışda çətinliklərlə üzləşdilər. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin açıqlamasına görə, bu problemlər ölkənin əsas magistral internet provayderlərindən biri olan Delta Telekom-a qarşı həyata keçirilən DDoS tipli kiberhücum nəticəsində yaranıb. Nazirlik bildirir ki, internet xidmətlərinin davamlılığını təmin etmək üçün trafik dərhal digər backbone operatorlara - Azertelecom və Aztelecom şəbəkələrinə yönləndirilib. Əslində, Azərbaycanın qlobal internetə çıxışını təmin edən bir neçə backbone operatorunun mövcudluğu bu cür kritik vəziyyətlərdə itkilərin minimuma endirilməsinə və xidmətlərin sürətlə bərpasına şərait yaradır. Bu, rəqabətin və alternativlərin nə qədər vacib olduğunu bir daha göstərdi." Amma əsas sual budur: ölkənin ən iri magistral operatoruna, dövlət qurumları və kritik infrastrukturu internetlə təmin edən Delta Telekom-a hücum haradan və nə məqsədlə qaynaqlana bilərdi?".

O.Gündüz yaranan problemin Rusiyadan qaynaqlana biləcəyini də istisna etməyib: "Mövcud siyasi konteksti nəzərə alsaq, bu hücumun mənbəyinin Rusiyadan ola biləcəyi ehtimalı istisna edilmir. Son dövrlər Bakı ilə Moskva arasında müşahidə olunan gərgin münasibətlər bu ehtimalı daha da gücləndirir. Rusiya dövlətlərarası gərgin münasibətlərdə kiberhücumlardan daha çox istifadə edən ölkələr sırasındadır. Unutmayaq ki, Azərbaycanın beynəlxalq internet trafiki hələ də böyük ölçüdə Rusiya üzərindən təmin olunur. Bu isə ölkəmizi müəyyən risklər qarşısında qoyur."

Xatırladaq ki, Rusiya daha öncə Ukraynada yerləşən SOCAR strukturlarına bir neçə dəfə hücumlar edib. Bu hadisə bir daha göstərdi ki, kritik infrastrukturun təhlükəsizliyi strateji məsələdir. Ölkə üçün rəqəmsal suverenlik yalnız daxili təhlükəsizliklə deyil, həm də xarici asılılıqların azaldılması ilə mümkündür. Buna görə də, alternativlərin, Transxəzər fiber-optik layihəsi kimi alternativ marşrutların sürətləndirilməsi, internet trafikinin diversifikasiyası və müstəqil çıxış kanallarının yaradılması Azərbaycanın informasiya təhlükəsizliyi üçün mühüm əhəmiyyət kəsb edir.

***S.Əli***

# "Həyat yoldaşımın başını kəsdilər" - Xocalıda əsir götürülən şəxs

***Avqustun 21-də Bakı Hərbi Məhkəməsində keçirilən məhkəmə prosesində zərərçəkmiş şəxs Rəhilə Hacıyeva ifadə verərək 1992-ci ilin fevral ayında Xocalı soyqırımı zamanı ailə üzvləri ilə birlikdə girov götürüldüyünü deyib.***

"Unikal" xəbər verir ki, Rəhilə Hacıyeva əvvəllər Xankəndidə yaşadıqlarını bildirib. O qeyd edib ki, 1988-ci ildə Xankəndidə azərbaycanlılara qarşı təzyiqlər başlayanda məcbur olub Şuşaya, oradan da Xocalıya köçüblər. Xocalı faciəsi zamanı isə Ermənistan silahlı qüvvələrinin hərbçiləri tərəfindən girov götürülüblər.

Zərərçəkmiş şəxs həyat yoldaşının döyüşlərdə iştirak etdiyini, ermənilərin onun qətli üçün pul mükafatı ayırdığını bildirib: "Həyat yoldaşımın başını kəsdilər. On yaşlı qızımı ikinci mərtəbədən atdılar, ayağı sındı. Bizə girovluqda çoxlu əzab-əziyyət verdilər".



Rəhilə Hacıyeva ifadəsində Ermənistan silahlı qüvvələrinin hərbçiləri tərəfindən Xankəndi sakini Cəlil kişinin hamilə gəlininin qarnının bıçaqla yarılaraq körpəsinin çıxarıldığını da söyləyib.

Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi davam etdirilir.

# Təhsil kreditində yenilik: bal həddi endirildi

***Orta ixtisas müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə qəbul olub təhsil tələbə krediti almaq istəyənlər üçün minimal bal həddi 40 bal müəyyən edilib. Bununla bağlı qərar Təhsil Tələbə Krediti Fondunun (TTKF) Himayəçilik Şurasında qəbul edilib.***

"Unikal"ın məlumatına görə, Fondun ictimaiyyətlə əlaqələr üzrə mütəxəssisi Gülnar Zeynalova "Azərbaycan müəllimi"nə bildirib ki, qərara əsasən, birinci tədris ilinin ilk semestrində təhsil krediti götürmək üçün tələbə qəbul imtahanında ən azı 40 bal toplamalıdır. Sonrakı semestrlərdə isə tələbənin orta müvəffəqiyyət göstəriciləri nəzərə alınır.

Yenilik 2025-2026-cı tədris ili üçün orta ixtisas təhsili müəssisələrinə qəbul olanlara şamil edilir.

G.Zeynalova əlavə edib ki, əvvəllər bal həddi bütün ixtisaslarda eyni olub: "Məlumdur ki, orta ixtisas təhsili müəssisələrində standart növ təhsil tələbə kreditindən yararlanmaq üçün abituriyentin topladığı balın minimum həddi 110-dur. Yeni qərara əsasən, bu müəssisələrdə yalnız xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə minimal bal həddi 40 bal müəyyən edilib". G.Zeynalova yeni qərarı tələbələrin təhsil imkanlarını genişləndirilməsi kimi şərh edib: "Bu minimal bal tələbi yalnız standart növ təhsil tələbə kreditindən yararlanmaq istəyənlərə şamil olunur. Sosial növ təhsil tələbə kreditində isə bal limiti yoxdur".

# MN korpusunun sabiq maliyyə xidmət rəisi 6 milyonluq mənimsəmədə ittiham olunur

***Müdafiə Nazirliyinin "N" saylı korpusunun Maliyyə xidmət rəisi vəzifəsini icra etmiş Namiq Mirzəyevin barəsində Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) başlanılmış cinayət işi üzrə məhkəmə prosesi keçirilib.***

Bakı Hərbi Məhkəməsində hakim Bilal Məmmədovun sədrliyi ilə keçirilən prosesdə ittiham aktı elan olunub.

İttihama görə, təqsirləndirilən şəxs Goranboy və Kəlbəcər rayonlarında yerləşən hərbi hissələrdə xidmət etdiyi dövr ərzində tamah məqsədilə dövlət əmlakını xüsusilə külli miqdarda mənimsəyib.

Belə ki, təqsirləndirilən şəxs müxtəlif şəxslərin adına olan bank kartlarına pul köçürərək qanunsuz şəkildə nağdlaşdırıb.

İttiham aktına münasibət bildirən cinayət işi üzrə təqsirləndirilən Namiq Mirzəyev ittihamla razılaşmadığını, özünü qismən təqsirli hesab etdiyini bildirib: "Mən 179.4 və 308-ci maddələr ilə ittiham olunuram. 308-ci maddə ilə özümü təqsirli bilsəm də, digər maddə ilə qismən təqsirli bilirəm. Mən dövlətə 43.800 manat ziyan ödəmişəm. Hazırda həbsdə olduğum üçün ödəniş edə bilmirəm".

Daha sonra şahidlər ifadə verib. Onlar ibtidai istintaqa verdikləri ifadəni təsdiq ediblər.

Məhkəmə digər 4 şahidin ifadəsi ilə avqustun 27-də davam etdiriləcək.

Qeyd edək ki, Namiq Mirzəyev ötən ilin avqust ayında DTX-nın vəsatəti əsasında həbs edilib.

Təqsirləndirilən Namiq Mirzəyev AR Cinayət Məcəlləsinin 179.4-cü (xüsusilə külli miqdarda mənimsəmə) və 308-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddəsi ilə ittiham olunur.

# Bakıda NATO nümayəndə heyəti ilə görüş keçirildi

***Azərbaycanla NATO arasında 2025-ci il üçün təsdiq olunmuş "Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramı"na əsasən, Quru Qoşunlarının "N" hərbi hissəsində Müdafiə Nazirliyi və NATO-nun nümayəndə heyətinin iştirakı ilə ekspert görüşü keçirilib.***

Nazirliyin Mətbuat xidmətindən "Unikal"a verilən xəbərə görə, görüşdə Müdafiə Nazirliyinin nümayəndələri və xarici mütəxəssislər tərəfindən müxtəlif brifinqlər təqdim olunub, qarşılıqlı maraq doğuran suallar cavablandırılıb.

Tərəflər, həmçinin ölkəmizin NATO ilə Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) proqramı çərçivəsində qurulan əlaqələrinin cari vəziyyətini təhlil edib, perspektiv məsələlər ətrafında geniş fikir mübadiləsi aparıblar.

Sonda xatirə şəkli çəkdirilib və qonaqlara hədiyyələr təqdim olunub.

## İlham Əliyev və birinci xanım Ağdərədə sakinlərlə görüşdü



***Avqustun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdərə rayonunun Vəngli kəndində Vəngli və Kolatağ kəndlərinin sakinləri ilə görüşüblər.***

"Unikal" xəbər verir ki, bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb.

## Hikmət Hacıyev Pakistan səfiri ilə görüşdü



***Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Pakistanın Azərbaycandakı səfiri Qasım Mohiuddin ilə görüşüb.***

"Unikal" xəbər verir ki, səfir bu barədə "X"də yazıb.

Diplomat bildirib ki, Hikmət Hacıyevi Vaşinqtonda Azərbaycan və Ermənistan arasında sülh sazişinin paraflanması və regional əlaqələrdə müsbət irəliləyişlər münasibətilə təbrik edib.

## Vüqar Qurbanov bu xəstəxanaya direktor təyin etdi



***Cəlilabad Rayon Mərkəzi Xəstəxanasına yeni direktor təyin olunub.***

"Unikal" xəbər verir ki, bununla bağlı TƏBİB-in İcraçı direktoru Vüqar Qurbanov müvafiq əmr imzalayıb.

Əmrə əsasən, Oktay Əmənullayev Cəlilabad Rayon Mərkəzi Xəstəxanasına direktor vəzifəsinə təyin edilib.O.Əmənullayev yeni təyinata qədər Astara Rayon Mərkəzi Xəstəxanasının direktoru vəzifəsində çalışıb.

Qeyd edək ki, TƏBİB-in İcraçı direktorunun müşaviri Anar Ağayev yeni direktoru tibb müəssisəsinin kollektivinə təqdim edib.

## Ağdərədə yanğın olan ərazidə partlayış olub, xəsarət alan var

***Ağdərə rayonunda yanğın baş verən ərazidə partlayış qeydə alınıb.***

APA-nın Qarabağ bürosu xəbər verir ki, nəticədə bir nəfər xəsarət alıb. Xəsarət alan şəxsin yanğınsöndürən nəfəri Babək Zeynalov olduğu bildirilir. Ona ilkin tibbi yardım göstərilib, Bərdə rayon mərkəzi xəstəxanasına köçürülür.

Yanğın və yanğınsöndürmə əməliyyatları davam etdirilib.

# Prezident Kəlbəcərdə təməlqoyma və açılış mərasimlərində iştirak edib

***Avqustun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər şəhərində 3-cü və 4-cü yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak ediblər.***

"Unikal" xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin Kəlbəcər rayonunda xüsusi nümayəndəsi Bəşir Hacıyev kompleksdə yaradılacaq şərait barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi. Bildirildi ki, bu yaşayış kompleksinin ərazisi 10 hektara yaxın olacaq. Buraya ümumilikdə 807 ailənin köçürülməsi nəzərdə tutulur. Yaşayış kompleksində 128 birotaqlı, 304 ikiotaqlı, 293 üçotaqlı, 82 dördotaqlı olmaqla 807 mənzil inşa ediləcək. Burada 4 mərtəbəli 26 binanın inşası planlaşdırılır. Binaların 1-ci mərtəbəsində məişət və ticarət obyektləri yaradılacaq. Yaşayış kompleksində sakinlərin rahatlığı və asudə vaxtlarının səmərəli təşkili üçün idman meydançaları, velosiped yolları salınacaq, istirahət guşələri, söhbətgahlar, uşaqlar üçün oyun guşələri inşa olunacaq. Binaların hamısı daimi su, elektrik enerjisi və yüksəksürətli internetlə təchiz ediləcək. Ərazidə, həmçinin geniş miqyasda yaşıllıq zonalarının salınması nəzərdə tutulur.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kəlbəcər şəhər parkının təməlini qoyub. Şəhərin müfəssəl Baş planına uyğun olaraq layihələndiriləcək yeni park kompleksi təxminən 11 hektar ərazini əhatə edəcək. Bu sahənin təxminən 9 hektarında yaşıllıqlar salınacaq. Parkda rayonun ictimai və mədəni həyatında baş verən tədbirlərin təşkili üçün xüsusi zonalar, idman və sağlamlıq guşələri, həmçinin uşaqlar üçün əyləncə və ekstremal macəra sahələri yaradılacaq. Layihəyə əsasən, parkın ərazisində yerüstü avtomobil dayanacağı, relsli xizək yolu, restoranlar, kafelər, amfiteatr və digər zəruri infrastruktur obyektlərinin inşası da nəzərdə tutulur. Bir sözlə, burada həm şəhər sakinlərinin, həm də qonaqların asudə vaxtlarını mənalı və rahat keçirmələri üçün hərtərəfli şərait təmin olunacaq. Dağlarla əhatələnmiş, əsrarəngiz təbiəti ilə seçilən Kəlbəcər şəhərində inşa olunacaq bu yeni istirahət mərkəzi bölgənin gözəlliyinə yeni rəng qatacaq və turizm potensialını daha da gücləndirəcək.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Toğanalı-Kəlbəcər-Istisu avtomobil yolunda görülən işlərlə tanış olublar. Dövlətimizin başçısı bu yolun 13,5-ci kilometrliyində inşa edilmiş və uzunluğu 11,7 kilometr olan Murovdağ tunelinin texniki açılışını edib. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına və birinci xanıma görülmüş və hazırda həyata keçirilən işlər barədə məlumat verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 21-də Kəlbəcər rayonunun Vəng kəndində "AzərEnerji" ASC-nin "Aşağı Vəng", "Nadirxanlı" və "Çaykənd" kiçik su elektrik stansiyalarının açılışında iştirak ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Balland-Kəlbəcər balı, arı və arıçılıq məhsulları mağazası"nın açılışında iştirak edib. Kəlbəcər Azərbaycanın ən zəngin təbiətə malik bölgələrindən biri olmaqla yanaşı, arıçılıq sahəsində qədim və dəyərli ənənələri yaşadan diyarlarımızdandır. Rayonun dağlıq relyefi, nadir və çoxçeşidli flora örtüyü, eləcə də yüksək dağ çaylarının ətrafında formalaşan əlverişli mikroiqlim burada istehsal olunan balın həm dad, həm keyfiyyət, həm də müalicəvi xüsusiyyətlərinə müsbət təsir göstərən əsas amillərdir.

# "Hər şey yaxşı olacaq" - Hökumənin atası

***Xəbər verdiyimiz kimi, avqustun 21-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər şəhərində 1-ci yaşayış kompleksinin ərazisində fərdi və çoxmərtəbəli evlərdə yaradılan şəraitlə tanış olub, buraya köçən sakinlərlə görüşüblər.***

"Unikal" xəbər verir ki, görüş zamanı AZAL-ın Aktau yaxınlığında qəzaya uğrayan təyyarəsində həlak olan ekipaj üzvü, Milli Qəhrəman Hökumə Əliyevanın atası ilə ölkə başçısı arasında maraqlı dialoq yaşanıb:

Sakin Cəlil Alıyev: Cənab Prezident, cənab Ali Baş Komandan, çox hörmətli Mehriban xanım, Sizi kəlbəcərlilər adından salamlayırıq. Doğma yurdumuza xoş gəlmisiniz! Bütün çıxışlarınızı diqqətlə izlədik, bəyənirik, alqışlayırıq. Bütün bu hadisələrin qəhrəmanı Sizsiniz. Bir daha Sizə təşəkkür edirik. Bilirik ki, Kəlbəcər xalqı, Kəlbəcər camaatı aşıqlar diyarıdır, şairlər diyarıdır. Ona görə də gözəl şairimiz Sücaət 32 il bundan qabaq yazırdı:

Sücaət, neyləyək, baxt belə baxtdır,

Darıxma, hər şeyi həll edən vaxtdır.

Bir gün gülə-gülə qayıdacaqdır,



Ağlaya-ağlaya köçən Kəlbəcər.

Bu hadisələrin səbəbkarı Sizsiniz. Sizə təşəkkür edirəm. Sağ olun, var olun.

Prezident İlham Əliyev: Təşəkkür edirəm, sağ olun.

Cəlil Alıyev: Həmişə Sizin yanınızda durmalıyıq. Bir olmalıyıq. Yumruq kimi birləşməliyik. "Böyük Qayıdış"ı başa çatdırmalıyıq. Mənim qızım Hökumənin sözü olmasın, hər şey yaxşı olacaq. Bir daha təşəkkür edirəm Sizə.

## Ərdoğan və Makron Bakı-İrəvan sazişini müzakirə etdilər

***Fransa prezidenti Emmanuel Makron ilə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub.***

"Unikal" xəbər verir ki, Fransa lideri bu barədə özünün X səhifəsində yazıb. Tərəflər Ermənistan və Azərbaycan liderləri arasında Donald Trampın vasitəçiliyi ilə baş tutan görüşü müzakirə ediblər: "Biz avqustun 8-də prezident Trampın himayəsi altında Ermənistan və Azərbaycan arasında keçirilən görüşdən yaranan ümidi də düşündük. Bunun tərəqqinin davam etməsi və bütün sərhədlərin açılmasına və regional əməkdaşlığın gücləndirilməsinə imkan verməsi vacibdir".

Liderlər həmçinin Ukrayna ətrafındakı vəziyyəti, eləcə də Qəzza zolağında tərəflərin üzərinə götürdüyü öhdəlikləri və Fələstin məsələsini müzakirə ediblər.

***Ağarza Elçinoğlu***

Baş redaktor:
**Zaur Əhməd**

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

31_27 IYUl-QARA.qxd 8/21/2025 11:28 PM Page 6



# Prezident Kəlbəcərdə mühüm mesaj verdi: “Sülh müqaviləsinin müəllifi bizik”

***Avqustun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər şəhərində 1-ci yaşayış kompleksinin ərazisində fərdi və çoxmərtəbəli evlərdə yaradılan şəraitlə tanış olub, buraya köçən sakinlərlə görüşüblər.***



“Unikal” xəbər verir ki, dövlətimizin başçısı görüşdə çıxış etdi. Prezident İlham Əliyev çıxışı zamanı bir çox mühüm məqamlara toxunub və önəmli mesajlar verib: “Bu gün, o cümlədən ona görə tarixi bir gündür ki, ölkəmizin ən böyük rayonu olan Kəlbəcər və onun şəhəri artıq canlanır, buraya həyat qayıdır və əminəm ki, siz burada rahat yaşayacaqsınız. Siz buna layiqsiniz. Uzun illər ərzində ağır şəraitdə - çadırlarda, uyğunlaşdırılmış binalarda, uşaq bağçalarında, yataqxanalarda - müxtəlif yerlərdə yaşamısınız, həyatınız çox ağır olub. Azərbaycan dövləti və Azərbaycan xalqı bir yumruq kimi birləşdi və biz Ermənistanı cəmi 44 gün ərzində kapitulyasiya aktını imzalamağa məcbur etdik. 44 günlük Vətən müharibəsi şanlı tariximizdir. Biz hər gün irəli gedirdik. Bir dənə də olsun döyüş meydanını tərk edən olmamışdır. Bir dənə də olsun fərari olmamışdır. Yəni bu, xalqımızın yüksək keyfiyyətlərini göstərir və onu göstərir ki, bütün xalqımız və Silahlı Qüvvələr Vətən uğrunda ölümə getməyə hazır idi. Ermənistan ordusunda isə özlərinin dediklərinə görə 12 min fərari olmuşdur. Vətən müharibəsi başa çatanda Kəlbəcər, Laçın, Ağdamın böyük hissəsi hələ işğal altında idi. Ancaq biz kapitulyasiya aktı nəticəsində Ermənistanı məcbur etdik ki, bu bölgələri bizə qaytarsın və bunu etməyə məcbur olmuşdur. Yəni, Kəlbəcər bir güllə atılmadan azad edildi. Siz kəlbəcərlilər bu bölgənin relyefini, iqlimini çox yaxşı bilirsiniz. Mən də çox yaxşı bilirəm, çünki dəfələrlə burada olmuşam və əvvəlki dövrlərdə buraya Ömər aşırımından keçmişəm.

Kəlbəcəri 2020-ci ilin sonunda, - artıq qış başlamışdır, - hərbi yolla azad etmək böyük itkilərlə nəticələnərdi. Təbii ki, biz azad edəcəkdik. Çünki Ermənistan ordusunu biz o vaxt deməkolar ki, məhv etmişdik. Ancaq onların güclü istehkamları var idi. O vaxt Ağdərə rayonu bizim nəzarətimizdə deyildi. Tək yeganə istiqamət Murov istiqamətindən idi və yenə də deyirəm, biz böyük itkilər verə bilərdik. Ona görə tarix bir daha göstərdi ki, 2020-ci il noyabrın 10-da müharibənin dayandırılması ən düzgün addım idi. Ancaq bununla bərabər, o vaxt hələ də torpaqlarımızın bir hissəsi nəzarətimizdə deyildi. O vaxtdan 2023-cü il sentyabrın 19-na qədər bizim qarşımızda duran əsas hədəf ölkəmizin suverenliyini tam bərpa etmək idi. O tarixi siz yaxşı xatırlayırsınız, həm dırnaqarası Laçın dəhlizini yox etmək və bunu Laçın-Xankəndi yoluna çevirmək, həm Ermənistan-Azərbaycan sərhədində Laçın istiqamətində nəzarət-buraxılış məntəqəsinin yaradılması, eyni zamanda, 2020-ci ilin noyabrından 2023-cü ilin sentyabrına qədər önəmli strateji nöqtələrin götürülməsi, “Fərrux”, “Qırxqız”, “Sarıbaba” əməliyyatları - bütün bunlar şanlı tariximizdir və bütün bunlar məqsədyönlü siyasətimizin bir hissəsi idi. Təbii ki, o vaxt biz bir çox şeyləri dilə gətirmirdik, buna ehtiyac da yox idi. Ancaq hədəfə doğru gedirdik ki, bizim torpağımızda bir dənə də olsun separatçı qalmamalıdır. Separatizmin başı əzilməlidir, kökü kəsilməlidir və bunu da etdik. Cəmi bir neçə saat davam edən antiterror əməliyyatı nəticəsində separatçı xunta kapitulyasiya aktına imza atdı. Öz saxta dırnaqarası respublikasının guya süqutu uğramasını əks etdirən sənəd imzaladı.



Bizim üçün 2023-cü ilin 19-20 sentyabrı 8 noyabr qədər şərəfli və tarixi günlərdir. O vaxtdan bu yana Azərbaycan xalqı sülh şəraitində yaşayır və əminəm, bundan sonra da sülh şəraitində yaşayacaq. Bilirsiniz ki, Ermənistan-Azərbaycan normallaşması prosesi demək olar ki, başa çatıb və imzalanmış sənədlər bizim maraqlarımızı tam təmin edir. Biz istədiyimizə nail olmuşuq, mənfur Minsk qrupu artıq son günlərini yaşayır. Faktiki olaraq o, heç bir fəaliyyət göstərmirdi və göstərə də bilməzdi. Ancaq hüquqi cəhətdən mövcud idi, indi onun da sonu yaxınlaşır.

Ermənistanla sülh müqaviləsinin müəllifi də bizik, o bəndlərin tərtibatında da bizim mövqeyimiz hər zaman əsas götürülmüşdür. Bu sənədin paraflanması faktiki olaraq Ermənistan-Azərbaycan qarşıdurmasına son qoyur. Bununla bərabər, bizim tarixi diyarımız olan Naxçıvanla quru bağlantısı da təmin edildi. 2020-ci ilin noyabrından son günlərə qədər biz təkidlə bu məsələni daim gündəlikdə saxlayırdıq və müxtəlif yollarla bu məqsədə çatmaq üçün səylər göstərirdik və nəhayət, biz buna da nail olduq. Artıq Ermənistan bu öhdəliyi də üzərinə götürmüşdür və ümid edirəm ki, yaxın bir neçə il ərzində biz qatarlarla və avtomobillərlə Azərbaycanın əsas hissəsindən Naxçıvana gedə biləcəyik. Eyni zamanda, bu, təkcə Azərbaycanın iki hissəsini bir-biri ilə birləşdirməyəcək. Bu, eyni zamanda, beynəlxalq nəqliyyat dəhlizinə çevriləcək. İndi Azərbaycan ərazisindən bir neçə nəqliyyat dəhlizi keçir və bu, əlbəttə ki, ölkəmizin önəmini artırır. Bir dəhliz də məhz bu istiqamət üzrə gedəcək. Artıq Zəngilana gedən dəmir yolunun inşası uğurla davam edir, yəqin ki, gələn il başa çatacaq. Biz indi Naxçıvan Muxtar Respublikasında dəmir yolunu tam müasirləşdirəcəyik. Ermənistan ərazisində də dəmir yolunun tikintisi nəzərdə tutulur. Yəni, Ermənistan bu öhdəliyi də üzərinə götürüb və bu, bizim növbəti tarixi uğurumuzdur.

Azərbaycan xalqı ən yüksək beynəlxalq müstəvidə öz böyüklüyünü bir daha göstərmişdir. Həm Vətən müharibəsi, həm antiterror əməliyyatı nəticəsində yaratdığımız yeni reallıqlar dünya tərəfindən qəbul edildi. Bu da çox vacib idi. Çünki Vətən müharibəsindən və xüsusilə 2023-cü ilin sentyabr əməliyyatından sonra Ermənistanın havadarları, müxtəlif ölkələr və dairələr bizə qarşı kampaniyaya başlamışdılar. Azərbaycanı cəzalandırmaq, Azərbaycana qarşı sanksiyalar tətbiq etmək və digər səylər göz önündə idi. Düzdür, onların heç biri həyata keçmədi. Bizim kifayət qədər güclü tərəfdaşlarımız var və beynəlxalq təşkilatlar çərçivəsində mövqeyimiz hər zaman ədalətli mövqe kimi qəbul olunub. Çünki biz öz torpağımızda müharibə aparmışıq. Bəzi başqa ölkələr kimi heç bir ölkənin torpağını zəbt etməmişik, etnik təmizləmə aparmamışıq, heç bir ölkənin şəhər və kəndlərini viran qoymamışıq. Biz öz torpağımızda döyüşmüşük, düşməni böyrü üstə qoymuşuq və ərazi bütövlüyümüzü bərpa etmişik, o cümlədən BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında. Ancaq buna baxmayaraq, Ermənistana himayədarlıq edən ölkələr bizə qarşı daim hərəkətdə idi və Vaşinqton şəhərində, dünyanın bir nömrəli ofisində imzalanmış sənədlər bütün bu səylərə də son qoydu.

Yəni, dünya birliyi, beynəlxalq aləm bizim Qələbəmizi və yeni reallıqları tam qəbul etmişdir və bu da özlüyündə tarixi hadisədir. Çünki sirr deyil ki, həm işğal dövründə, həm də müharibə dövründə Ermənistanı dəstəkləyən böyük dövlətlər bizə hər zaman böyük problemlər yaradırdı və yarada bilərdi. Bizim gücümüz, xalqımızın iqtidarla bir yerdə olması, hərbi Zəfərimiz, cəmiyyətdəki ovqat, vətənpərvərlik ruhu - bütün bu amillər bütün dünyaya göstərdi ki, hər kəs bizimlə hesablaşmalıdır və bizimlə hesablaşmayan nəticədə peşman olur. Bunu Ermənistan-Azərbaycan müharibəsi, Vətən müharibəsi, müharibədən sonrakı dövr göstərmişdir və bunu bugünkü reallıqlar da göstərir.

Azərbaycan ləyaqətli ölkədir, güclü ölkədir, heç kimə məsləhət görmürük ki, nə vaxtsa bizə qarşı hansısa bəd əməllər haqqında düşünsün. Hər halda son 80 il ərzində dünyada Azərbaycan qədər tam və mütləq qələbə qazanan ikinci ölkə olmamışdır. İndi dünyada gedən prosesləri görürsünüz. Müxtəlif yerlərdə toqquşmalar, müharibələr, hərbi cinayətlər baş alıb gedir. Amma heç kim tam qələbə qazanmayıb. Müharibələr davam edir, daha böyük coğrafiyanı əhatə edir və yəqin ki, davam edəcək. Yəni, bax, bu siyasi məsələlərin inkişafı bunu göstərir. Tək yeganə ölkə bizik. Yeganə xalq bizik ki, tam Qələbə qazandıq, mütləq Qələbə qazandıq. Düşməni kapitulyasiya aktını imzalamağa məcbur etdik və eyni zamanda, sülhün təminatçısı da Azərbaycandır.

Biz düşməndən qisasımızı döyüş meydanında aldıq. Biz bir daha xalqımızın böyüklüyünü göstərdik. Onların bizə etdiklərini biz onlara etmədik. Halbuki onların etdikləri heç vaxt yaddaşımızdan silinməyəcək. O cümlədən kəlbəcərlilərə qarşı edilən hərbi cinayətlər, soyqırımı, Xocalı soyqırımı, digər bölgələrdən olan vətəndaşlarımıza qarşı düşmənçilik, ədavət və vəhşilik heç vaxt yaddaşımızdan silinməyəcək və silinməməlidir. Bunu mən həm müharibəni qazanan ölkənin Ali Baş Komandanı kimi və bu gün Ermənistanla, məğlub edilmiş Ermənistanla sülh prosesinin iştirakçısı kimi deyirəm. Biz istəmirik ki, müharibə olsun. Biz sülh istəyirik. Ancaq heç vaxt o qanlı tarix yaddaşımızdan silinməməlidir, heç vaxt şirin sözlərə aldanmamalıyıq, ayıq olmalıyıq. Təbii ki, bizim Silahlı Qüvvələrimiz hər an, hər gün dövlətimizin maraqlarının, təhlükəsizliyin keşiyindədir. Biz mümkün olan təhlükə mənbələrini izləyirik, görürük və görəcəyik. Biz hərbi gücümüzü artırırıq. İkinci Qarabağ müharibəsindən sonra həm Xəzər dənizindəki, həm də bütün digər silahlı qüvvələrimizin inkişafı ilə əlaqədar minlərlə, - sayını demək istəmirəm, amma böyük sayda, - xüsusi təyinatlı qüvvələrimizin say tərkibini artırmışıq, yeni komando qüvvələri yaradılıb.

Pilotsuz uçuş aparatlarının ən müasirləri, yeni artilleriya sistemləri ölkəmizə gətirilib. İndi yeni döyüş təyyarələri üzrə kontraktlar bağlanıb və mövcud olan təyyarələr tam müasirləşdirilib. Biz hər an müharibəyə hazır olmalıyıq. Çünki dünyada proseslər elə istiqamətdə gedir ki, bilmək olmaz, sabah nə olacaq. Bizim təhlükəsizliyimizin qarantı biz özümüzük - dövlət, xalq və Silahlı Qüvvələrimiz. Ona görə, əgər kiminsə xəstə ağlına Azərbaycana qarşı hər hansı bir təxribat törətmək gələrsə, məncə, yenə də peşman olacaq. Biz isə bundan sonra müzəffər xalq və müzəffər, qalib dövlət kimi yaşayacağıq”.

31_27 IYUI-QARA.qxd 8/21/2025 11:28 PM Page 7





## Azad edilən ərazilər iqtisadiyyata 15 milyard əlavə dəyər qazandıra bilər

***"İşğaldan azad olunmuş hər bir rayon kifayət qədər böyük və müxtəlif iqtisadi imkanlara malikdir. Təbii ki, bu potensialdan tam istifadə olunması üçün genişmiqyaslı yenidənqurma və bərpa işləri aparılır".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, Qarabağ və Şərqi Zəngəzurun iqtisadi potensialının tədricən bərpa olunduğunu və bu ərazilərin Azərbaycan iqtisadiyyatına reinteqrasiya prosesinin getdiyini müşahidə edirik.

"Bu, bir tərəfdən ölkə iqtisadiyyatına əlavə dəyər yaradırsa, digər tərəfdən həmin bölgələrdə məskunlaşma prosesini də sürətləndirir. Artıq 50 mindən çox vətəndaşımız işğaldan azad olunmuş ərazilərdə yaşayır və çalışır. İlkin qiymətləndirmələrə əsasən, Qarabağ və Şərqi Zəngəzur bölgələri Azərbaycan iqtisadiyyatına 15 milyard manata yaxın əlavə dəyər qazandıra bilər. İşğaldan azad olunmuş rayonlarımızın iqtisadi potensialı kifayət qədər böyükdür. Bu potensial isə yaxın gələcəkdə Qarabağın Azərbaycan iqtisadiyyatının yeni inkişaf drayverinə çevrilməsinə imkan verəcək".

## Naxçıvanda bu komitəyə Aparat rəhbəri təyin olunub

***Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə Aparat rəhbəri təyin olunub.***

"Unikal" xəbər verir ki, bununla bağlı Naxçıvan MR-in Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri İlqar Sadıqov əmr imzalayıb.

Əmrə əsasən, Əmirov Turab Siyasət oğlu Komitənin Aparat rəhbəri vəzifəsinə təyin edilib.

Qeyd edək ki, T.Əmirov bu təyinata qədər Naxçıvan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Maliyyə və Təminat şöbəsinin müdiri vəzifəsində çalışıb.

## "Aztelekom"dan internet problemi ilə bağlı açıqlama

***Hazırda "Aztelekom" MMC-nin şəbəkəsində internet xidmətlərinin göstərilməsində hər hansı nasazlıq və yaxud kəsintilər müşahidə olunmur.***

Bu barədə "Unikal"a şirkətdən bildirilib. "Abunəçilərimizə sabit və fasiləsiz internetin təmin edilməsi bizim üçün əsas prioritetdir", - deyə məlumatda qeyd olunub.

Xatırladaq, bu gün sosial şəbəkələrdə ölkədə internet təchizatı ilə bağlı problemlərin olması barədə məlumatlar yayılıb.

# "Rusiya Azəraycanın Ermənistanla sülhə nail olunmasını qəbul edə bilmir"

### Azər Badamov: "Son vaxtlar Rusiyada həmyerlilərimizə qarşı davam etdirilən anti-Azərbaycan kampaniyası qeyri-dost addımdır və bu yanaşmalar iki ölkə arasında gərginliyin dərinləşməsinə aparır"

***Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini, deputat Azər Badamov "Unikal"a müsahibə verib. O, son vaxtlar Rusiyada diaspora rəhbərlərinə qarşı kampaniyaya başladılmasından, Ukraynada olan Azərbaycana məxsus enerji infrastrukturuna zərbələr endirilməsindən və Azərbaycanla-Rusiya arasında gərginliyin artacağı halda bunun iki ölkə arasındakı iqtisadi əlaqələrə necə təsir edəcəyindən danışıb.***

***-Azər müəllim, son vaxtlar Rusiyada həmyerlilərimizə, xüsusilə diaspora rəhbərlərinə qarşı kampaniya başladıldığının şahidi oluruq. Onlardan saxlanılan və Rusiya vətəndaşlığından məhrum edilənlər var. Rusiyada soydaşlarımıza qarşı atılan bu addımları necə qiymətləndirirsiz?***



-Son vaxtlar Rusiyada həmyerlilərimizə qarşı davam etdirilən anti-Azərbaycan kampaniyası qeyri-dost addımdır və bu yanaşmalar iki ölkə arasında gərginliyin dərinləşməsinə aparır. Rusiya Azərbaycanın Cənubi Qafqazda yaratdığı reallığı və Ermənistanla sülhə nail olunmasını qəbul edə bilmir. Çünki, 2023-cü ilin sentyabrın 20-də Qarabağda keçirdiyimiz lokal xarakterli antiterror tədbirləri Rusiyanın gələcək planlarını pozdu. 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanatdan sonra dərhal Rusiya hərbçiləri Qarabağa gələrək kök salıb uzun müddətə Azərbaycanda dislokasiya olunmaq niyyətində idi. Amma Azərbaycanın öz ərazilərində separatçılığın kökünü kəsməsi, erməni separatçılıq problemini kökündən həll etməsi Rusiyanın planlarını pozdu və hərbçilərinin də ərazilərimizdən çıxmasını labüd etdi. 2024-cü ilin dekabrında Qrozni səmasında AZAL-a məxsus sərnişin təyyarəsinin hədəfə alınması və qəzaya uğramasına görə rəsmən üzr istəməsi, fevral ayında Rusiya ərazisindən saytlarımıza kiberhücumların təşkili, may ayında heç bir əsas olmadan Milli Məclisin deputatı olaraq mənim Moskvada saxlanılaraq deport edilməyim, Yekaterinburqdan başlanmış Azərbaycan diasporuna qarşı elan olunan müharibə, Dövlət Dumasının deputatlarının, Solovyov və Simonyanın Azərbaycana qarşı həyata keçirdiyi əsassız ittiham kampaniyası və Ukrayna ərazisində Azərbaycanın mülki infrastrukturuna qarşı edilən hücumların kökündə yaratdığımız yeni sülh reallığının həzm edilə bilməməsinin dayandığını hesab edirəm.

***-Siz də Rusiyanın Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Ukraynanın Odessa vilayətində yerləşən neft bazasına hücumunu qeyd etdiniz. Bu, Azərbaycana qarşı son aylarda intensivləşən təzyiq siyasətinin tərkib hissəsidir. Rusiyanın Ukraynadakı enerji infrastrukturumuza hücum etməkdə məqsədi nədir?***

-Müharibə aparan iki ölkə arasında bir-birinin enerji strukturunu, strateji obyektlərini atəşə məruz qoyması təbii ki, birinin digərini döyüş meydanında məğlub etmək baxımından başa düşüləndir. Amma SOCAR-a məxsus obyektləri vuraraq bunu mətbuatda açıq şəkildə Azərbaycanın obyektlərinin məhv edilməsi kimi işıqlandırılmasını ölkəmizə qarşı aparılan qərəz və düşmənçilik kampaniyasının tərkib hissəsi kimi qeyd edə bilərik. Bu infrastruktura edilən atəş zərbələrini ancaq Azərbaycana məxsus olduğu üçün etdiklərini bildirirlər. Təbii ki, bu ilk növbədə beynəlxalq humanitar hüququn pozulmasıdır. İkincisi isə Odessada dağıdılmış infrastruktur Rusiyanın Ukrayna müharibəsinə qədər Azərbaycana satdığı mülkiyyətdir. Rusiya bu mülkiyyəti aldığına görə Azərbaycana təşəkkür etməli idi. Əgər Azərbaycan almasaydı, bu gün Ukrayna heç bir ödəniş etmədən həmin obyektləri müsadirə etmişdi. Bu baxımdan Odessadakı neft terminalının PUA atəşinə tutularaq dağıdılmasına Azərbaycana qarşı davam etdirilən düşmənçilikdən başqa bir ad qoymaq mümkün deyil.

***- Son hadisələrin iki ölkə arasındakı iqtisadi əlaqələrə necə təsir edəcəyini düşünürsüz?***

-Təbii ki, sıx iqtisadi əməkdaşlıq edən iki ölkə arasında gərginliyin dərinləşməsi heç bir tərəfə xeyir gətirmir. Yaşanan bu gərginlik ikitərəfli münasibətlərdə uçurum yaradır. Bu ilk növbədə iqtisadi əməkdaşlıqda özünü göstərir. Rusiyanın müxtəlif dairələrində gərginliyin Azərbaycanın iqtisadi durumuna mənfi təsir göstərəcəyi iddia olunur. Təbii ki, gərginlik dərinləşərsə, Rusiya ənənəvi bazar olduğundan kənd təsərrüfatı mallarının satılmasına müəyyən bir dövr üçün çətinlik yaranacaq. Ona görə ki, Rusiya bazarı bizə yaxın və rahat olduğuna görə bu bazara daha çox adaptasiya olunmuşuq. Amma çıxılmaz vəziyyət yoxdur. Əgər Rusiya bazarında çətinliklər davam edərsə, bu bizi yeni bazarlara çıxmaq üzərində işləməyi məcbur edəcək. Hər bir çətinlik yeni başlanğıc üçün fürsət pəncərəsi, başlanğıc nöqtəsidir. Bu baxımdan Azərbaycanın itirəcəyi qısa müddətli olsa da, vəziyyətdən çıxış yolları mövcuddur. Biz həm də hansı tərəfin nə qədər iqtisadi itki ilə qarşılaşacağını müqayisə etməliyik. Deyə bilərik ki, Azərbaycanla Rusiya arasındakı ticarət dövriyyəsində idxalımız ixracdan üç dəfədən çoxdur. Bu o deməkdir ki, biz ancaq Rusiyaya ixrac etməklə məşğul deyilik. Rusiyanın idxal - ixracla bağlı sanksiyalarla qarşılaşdığı dövrdə ixrac bazarlarının itirilməsi onların özləri üçün daha ziyanlıdır. Müharibə aparan, sanksiyalar altında olan ölkə iqtisadiyyatını qoruyub saxlamaq üçün ölkəyə gələn hər bir dolları düşünür. Bu baxımdan Azərbaycanla iqtisadi əlaqələrin pozulması Rusiya üçün böyük çətinliklər yaradacaq. Azərbaycana isə Rusiyadan idxalını başqa ölkələrlə əvəz etməkdə heç bir çətinlik yaratmayacaq. Çünki, biz valyutamızı verib idxal edirik. Pulun olanda mal gətirmək çətin olmur.

Bundan əlavə iqtisadi münasibətlərin gərginləşməsindən danışılanda Azərbaycan üzərindən reallaşdırılan beynəlxalq daşımalara da diqqət yetirməliyik. Rusiya Şimal-Cənub və Şimal-Qərb marşurutları vasitəsilə daşımaları həyata keçirməklə Azərbaycan üzərindən beynəlxalq bazarlara çıxışı üçün əsas qapı imkanına malik olub. Bütün bunlar onu deməyə imkan verir ki, ölkələrimiz arasında münasibətlərin gərginləşməsindən Rusiya heç nə qazanmır. Əksinə, çətinliklə üzləşmiş iqtisadiyyatında problemləri daha da dərinləşdirmiş olur. Ona görə siyasətçilər və Kremlin ruporları Azərbaycana qarşı iqtisadi təzyiq üsullarından ağız dolusu danışsa da, siyasi münasibətlərin gərgin olmasına baxamayaraq, ticari-iqtisadi sahədə əməkdaşlıq keçən ilin müvafiq dövrü ilə müqayisədə daha da artıb. Yəni, iki ölkə arasında baş verən gərginliklərə baxmayaraq, Rusiyanın Azərbaycanla iqtisadi münasibətlərini daha da artırdığını deyə bilərik.

***Anar Kəlbiyev***

# Ali məktəblərdə rektor hegemonluğu: Pullu təhsili artırmaqda kimlər maraqlıdır?

## Universitetlərdəki ağlasığmaz bahalaşmanın pərdəarxası: təhsilin keyfiyyəti aşağı, qiyməti kəlləçarxda... - Fantastik qiymətlər!

***Son günlərdə Azərbaycanda bəzi ali məktəblərin təhsil haqları qiyməti müzakirə mövzusuna çevrilib. Hələ iyunda Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) növbəti tədris ili üçün illik təhsil haqqının artırılacağı açıqlanıb. Artım bakalavriat və magistratura səviyyələrində müşahidə edilib.***

”Burada bakalavriat və magistratura səviyyələrində bütün ixtisaslar üzrə təhsil haqqı 2300 manatdan 2400 manata, MBA proqramlarında isə 2500 manatdan 2700 manata qalxıb”, - həmin vaxt universitetdən ”Azərbaycan müəllimi”nə verilən məlumatda deyilirdi.

Bu günlərdə isə Azərbaycan Tibb Universitetində təhsil haqqı ixtisaslara müvafiq olaraq artırılıb. Universitet bu qərarını Nazirlər Kabinetinin qərarına əsasən ölkəmizdəki ali təhsil müəssisələrində təhsil xərclərinin artırılması ilə əsaslandırıb. Qeyd olunub ki, təhsil haqqı tibb ixtisası üzrə 6500 manat, stomatologiya 6000 manat, əczaçılıq, fizioterapiya, ictimai səhiyyə və tibb bacısı ixtisasları üzrə isə 5000 manat olaraq dəyişdirilib.

Xatırladaq ki, ötən il təhsil haqqı tibb ixtisası üzrə 4500 manat, stomatologiya üzrə 4000 manat, əczaçılıq, fizioterapiya, ictimai səhiyyə və tibb bacısı ixtisasları üzrə isə 4000 manat olub.

Bu arada Azərbaycanda illik təhsil haqqının ən yüksək olduğu universitetlərin siyahısı da açıqlanıb. Məlum olub ki, siyahıya ADA liderlik edir. Burada ixtisasların təhsil haqqı 6000-8000 manat arasında dəyişir.

Azərbaycan Tibb Universitetində ixtisasların illik təhsil haqqı 5000-6500, Xəzər Universitetində bütün ixtisasların illik təhsil haqqı 4000-5000 manat, Qərbi Kaspi Universitetində bəzi ixtisaslarda təhsil haqqının 4000 manat olduğu görünür.

Bakı Ali Neft Məktəbində ”Biznesin idarə edilməsi” və ”Maliyyə” ixtisaslarında illik təhsil haqqı 4500 manatdır. Bakı Dövlət Universitetinin ”Hüquqşünaslıq” ixtisası da təhsil haqqı yüksək olan ixtisaslardandır. Burada da illik təhsil haqqı 4500 manatdır.

Bakı Musiqi Akademiyası da illik təhsil haqqıları yüksək olan ali təhsil müəssisələrindəndir. Burada əksər ixtisasların illik təhsil haqqı 4000 manat təşkil edir. Azərbaycan Milli Konservatoriyasında isə iki ixtisasın illik təhsil haqqı 4000 manatdır. Bunlar ”Vokal sənəti” ilə ”Populyar musiqi və caz ifaçılığı” ixtisaslarıdır.

Universitetlərimizin yüksək təhsil haqqı qiymətləri hazırda ciddi müzakirə mövzusudur. Bir çoxları düşünür ki, müəyyənləşdirilən məbləğlərlə verilən təhsilin keyfiyyəti arasında dərin uçurum var. Oxşar fikirləri Milli Məclisin Elm və təhsil komitəsinin üzvü, deputat Ceyhun Məmmədov da səsləndirib. O, “Demokrat.az”a açıqlamasında deyib ki, universitetlərimizdə təhsilin keyfiyyətinin artırılması barədə ciddi düşünməliyik: ”Universitetlərimizdə təhsilin səviyyəsi olduqca aşağıdır, universitetlərimizin çoxu tələbələrlə işləmir və bu da reallıqdır ki, gənclərin əksəriyyəti keyfiyyətli təhsil almaq üçün xaricə üz tuturlar. Amma burada bir məqam var ki, xaricdə verilən təhsil də hər zaman keyfiyyətli deyil. Bəzən gənclərimiz keyfiyyətli təhsil almaq istəyərkən tələyə düşərək, çoxlu pul xərcləmələrinə baxmayaraq, istəklərinə çata bilmirlər. Bu məsələnin üzərində biz ciddi işləməliyik ki, təhsilimizin keyfiyyətini qaldıraq...”

Sabiq deputat, fəlsəfə doktoru Etibar Əliyev da mövzu ilə bağlı sərt fikirlər səsləndirib. O deyib ki, bu gün Azərbaycanda universitetlər maliyyə müstəqilliyinə malik deyillər: “Onların maliyyəsi dövlətin köçürdüyü vəsait və tələbələrin ödədiyi təhsil haqqı hesabınadır. Həmin vəsaitin xərclənməsində də sərbəst deyillər.Universitetlər sanki qapalı bir məkana çevriliblər. İctimai nəzarət yox səviyyəsindədir. Nəticədə bir nəfərin idarəçiliyi hökm sürür - rektorun. Elmi şuraların fəaliyyəti çox aşağı səviyyədədir. Digər tərəfdən, universitet kitabxanaları yenilənmir, elektron kitabxanalar çox geridədir”. Sabiq deputat əlavə edib ki, hazırda universitetlərimiz sırf rektorların şəxsi istəkləri ilə idarə edilir və professor-müəllim bazasında problemlər var: ”Professor-müəllim heyətinin isə tərkibini bilirik. Hər il Ali Attestasiya Komissiyası ixtisaslar üzrə müdafiə olunan işlərin siyahısını hazırlayır. Mən sizi tam əmin edirəm ki, əksər dissertasiyalar başqaları tərəfindən yazılır, köçürmədir. Nəticədə də bu cür alim korpusu formalaşır. Bu formada alim korpusu əlbəttə ki, güclü mütəxəssis yetişdirə bilməz. Xarici universitetlərlə əlaqələr zəifdir, təcrübələr öyrənilmir. Qeyd etdiyim kimi, sürətli inkişaf edən universitet konsepsiyası var və bu, çox səmərəli konsepsiyadır ki, dünyada inkişaf etmiş universitetlərin sayını artırıb. Çünki onlar dərk edirlər ki, universitetin inkişafı dövlətin inkişafıdır. Fikir verdiniz, biz Beynəlxalq Riyaziyyat Olimpiadasında bir medal belə qazana bilmədik. Bizdə Riyaziyyat İnstitutu var, bütün universitetlərdə Riyaziyyat kafedraları var. Demək, bunu bacarmırlar. Heç kim də həyəcan təbili çalmır ki, riyaziyyat elminin inkişafı dövlətin inkişafının təməlində durur. Bunun müqabilində universitetlər durmadan təhsil haqlarını artırırlar. Bu ödənişin qarşılığında mütləq keyfiyyətli təhsil verilməlidir. Nə qədər alimlər var ki, universitetlərə müraciət edirlər, onlar üçün qapılar bağlıdır. Çünki rektorlar şəxsi ambisiyaları ilə müəllim heyəti formalaşdırırlar. İstədikləri adamı kafedra müdiri, dekan qoyurlar. Dost-tanış yanaşması ilə universitetlərin heyəti formalaşır”.



Vətəndaşlar da sosial şəbəkələrdə universitetlərin yüksək təhsil haqqı qiymətlərinə etiraz edirlər. Onların dediyinə görə, əhalinin aylıq gəlirlərinin orta-da olduğu bir şəraitdə təhsil haqlarının 1500-2000 manatdan başlaması, 3-4, hətta 5-6 min manatla müşayiət olunması absurddur. Belə çıxır ki, orta aylıq əməkhaqqı ilə dolanan vətəndaşlar üçün bu gedişlə öz övladlarını universitetlərdə oxutmaq əlçatmaz olacaq.

***Sənan Mirzə***



# Əli Əsədov sərəncam imzaladı

***Baş nazir Əli Əsədov Prezident İlham Əliyevin “Sumqayıt Kimya Sənaye Parkının ərazisinin genişləndirilməsi haqqında” 11 avqust 2025-ci il tarixli sərəncamının icrasının təmin edilməsi barədə sərəncam imzalayıb.***

“Unikal” xəbər verir ki, sərəncama əsasən, Sumqayıt Şəhər İcra Hakimiyyəti İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla, Sumqayıtın Sülh prospektində yerləşən və “Azərboru” ASC-nin istifadəsindəki dövlət mülkiyyətində olan sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar kateqoriyasına aid 26,6676 hektar torpaq sahəsinin icarəyə vermək hüququ ilə İqtisadi Zonaların İnkişafı Agentliyinin istifadəsinə verilməsini iki ay müddətində təmin etməli, bu barədə Nazirlər Kabinetinə məlumat verməli, sərəncamdan irəli gələn məsələləri həll etməlidirlər.

Sərəncamın icrası Nazirlər Kabineti Aparatının Aqrar və ekologiya şöbəsinə həvalə edilib.

Sərəncam imzalandığı gündən qüvvəyə minir.

# Deputatların tətil dövrü bitir

***Avqustun 30-da Milli Məclisin deputatlarının tətil müddəti başa çatır.***

Milli Məclisin Daxili Nizamnaməsinə uyğun olaraq, deputatlar payız sessiyasına hazırlıq məqsədilə komitə iclaslarına başlayacaqlar.

Nizamnaməyə əsasən, səlahiyyəti dövründə Milli Məclis ildə iki dəfə - iyul ayının 15-dən avqustun 30-dək və yanvar ayının 1-dən 15-dək tətilə buraxılır. Tətil dövründə Milli Məclisin deputatları məzuniyyətdə sayılırlar. Tətil dövründə Milli Məclisin növbədənkənar sessiyası çağırıldıqda parlamentin tətili növbədənkənar sessiyanın keçirildiyi müddətə dayandırılır və Milli Məclisin deputatları həmin müddətə məzuniyyətdən geri çağırılırlar.

Azərbaycan Respublikası Konstitusiyasının 88-ci maddəsinin I hissəsinin birinci abzasına uyğun olaraq Milli Məclis hər il iki növbəti yaz və payız sessiyalarına toplanır. Yaz sessiyası fevralın 1-də başlanır və mayın 31-dək davam edir. Payız sessiyası sentyabrın 30-da başlanır və dekabrın 30-dək davam edir. Əgər fevralın 1-i və sentyabrın 30-u istirahət, səsvermə, iş günü hesab edilməyən bayram gününə düşərsə, sessiya bu gündən sonra gələn birinci iş günü öz işinə başlayır.

Qeyd edək ki, avqustun 30-u şənbə gününə təsadüf etdiyi üçün Milli Məclisin deputatları sentyabrın 1-dən iş başında olacaqlar.

31_27 IYUl-QARA.qxd 8/21/2025 11:28 PM Page 9



# Qəbul imtahanlarının yekun cavabları nə zaman çıxır - Rəsmi



***Məlum olduğu kimi, ali təhsil müəssisələrinin bakalavriat pilləsi üzrə ixtisas seçimi başa çatıb.***

İxtisas seçimi bütün ixtisas qrupları üzrə 2025-ci il avqustun 11-dən 19 avqust saat 23:59-dək internet vasitəsilə aparılıb.

Sosial şəbəkələrdə yerləşdirmənin nəticələrinin avqustun 22-si günün ikinci yarısı açıqlanması ilə bağlı fikirlər səsləndirilir.

“Unikal” sözügedən iddialarla bağlı Dövlət İmtahan Mərkəzinə sorğu ünvanlayıb.

Sorğumuza cavab olaraq olaraq bildirilib ki, yerləşdirmənin nəticələri ilə bağlı dəqiq tarix bilinmir:

”İmtahan nəticələri, müsabiqə nəticələri və s. bu kimi məsələlərdə dəqiq tarix göstərmək mümkün olmur”.

Qeyd edək ki, bakalavriat səviyyəsi üzrə 86 min 460 abituriyent ali təhsil müəssisələrinə elektron ixtisas seçimi ərizələrini təsdiq edib.

Onlardan 23 min 919-u I qrup üzrə, 19 min 41-i II qrup üzrə, 24 min 414-ü III qrup üzrə, 6 966-sı IV qrup üzrə, 16 min 517-si isə V qrup üzrə seçim edib.

Həmçinin I qrupda 22 min 209 nəfər Azərbaycan bölməsi, 1710 nəfər rus bölməsi, II qrupda 17 min 682-si Azərbaycan bölməsi, 1 359-u rus bölməsi, III qrupda 22 min 130-u Azərbaycan bölməsi, 2 284-ü rus bölməsi, IV qrupda 6 min 319-u Azərbaycan bölməsi, 647-si rus bölməsi, V qrupda isə 14 min 350-si Azərbaycan bölməsi, 2 167-si isə rus bölməsi üzrə ixtisas seçimi edib.

# Bakıda yaşayan erməni narkotikə görə hakim qarşısında

***Narkotik vasitələrin qanunsuz dövriyyəsində təqsirləndirilən Artur Avakyanın cinayət işi üzrə məhkəmənin hazırlıq iclası keçirilib.***



”Unikal”ın məlumatina görə Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Vüqar Seyidovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilənin anket məlumatları dəqiqləşdirilib.

Məlum olub ki, A.Avakyan Gəncə şəhərində anadan olsada Bakının Xəzər rayonu ərazisində yaşayıb.

Milliyətcə erməni olan Artur Avakyan tərcüməçiyə ehtiyacı olmadığını deyib: ”Cənab hakim, mən Gəncədə böyümüşəm və Azərbaycan dilində rahat danışıram. Mən azərbaycanlıyam və bununla da fəxr edirəm. Məhkəmənin ədalətinə də güvənirəm. Buna görə də tərcüməçiyə ehtiyac duymuram”.

Cinayət işi məhkəmə baxışına verilib. verilib.

Baxış iclası sentyabr 11-nə təyin edilib.

Qeyd edək ki, Artur Avakyan paytaxt ərazisində polis əməkdaşları tərəfindən saxlanılıb. Onun barəsində Cinayət Məcəlləsinin 234.4.3-cü (Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma, külli miqdarda törədildikdə) maddəsi ilə ittiaham irəli sürülüb. A.Avakyan barəsində ilkin istintaq dövründə həbs qətimkan tədbiri seçilib.

***Seymur Əli***

# Ölkə üzrə pensiyalar ödənildi

***Avqustun 13-də Bakı və Sumqayıt şəhərləri, Abşeron rayonu və Naxçıvan MR-də, bu gün isə ölkəmizin bölgələrində yaşayan şəxslərin avqust ayı üzrə pensiyaları, habelə güzəştli şərtlərlə təyin edilmiş pensiyalar ödənilib.***

Bu barədə ”Unikal”a Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi məlumat verib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu respublika üzrə avqust ayının pensiya ödənişini yekunlaşdırıb.

# Sahil Babayev yenidən tənqid hədəfində

***2018-ci ildə əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsinə gətirildikdən bir il sonra vətəndaşların ən çox şikayətləndiyi iri məmurlardan birinə çevrilən Sahil Babayev, deyəsən, öz “rekordunu” yeniləyib: maliyyə naziri təyin olunmasından heç yarım il keçməmiş yeni postundakı fəaliyyətinə görə sərt tənqidlərə tuş gəlməyə başlayıb!***

Bu ilin fevralında maliyyə naziri təyin edilən Babayev hələ apreldə Maliyyə Nazirliyi dövlət büdcəsi vəsaitlərinin daha səmərəli idarə olunması üçün xəzinə hesabının milli valyutada olan sərbəst qalığının yerli banklarda yerləşdirdiyini bəyan etmiş, öncə 1 milyard manatı 4 sistem əhəmiyyətli bankda, 2 həftə sonra isə 500 milyon manat həcmində sərbəst qalığı ölkənin 5 ən iri bankında yerləşdirmiş, bunun ardınca ekspertlərin iradları ilə üzləşmişdi. Babayev və komandası banklar arasında ayrı-seçkilikdə günahlandırılmışdı. Məsələn, iqtisadçı deputat Vüqar Bayramov bildirmişdi ki, belə selektiv yanaşma bank sektoru üçün arzuolunan deyil: “Çünki bu sektorda təmərküzləşmə baxımından daha çox diskrimativ effekt yarada bilər”. O, əlavə etmişdi ki, heç bir inkişaf etmiş ölkədə hər hansı sektorda iştirakçılar “yaxşı” və “pis oğlanlar” kimi qruplaşdırılmır. İqtisadçı deputatın sözlərinə görə, bu baxımdan, Maliyyə Nazirliyinin də öz hərraclarına ilk dördlük və ya ilk beşliyi deyil, reytinqlərinə uyğun bankları dəvət etməsi daha məqsədəuyğundur. “Bütövlükdə, hərraclarda iştirak ilə bağlı meyar bankların böyüklüyü deyil, onların beynəlxalq reytinqi olmalıdır. Xüsusən də, 2016-cı ildə aparıcı banklardan birinin müflis olduğunu xatırlasaq ”böyüklük ilə az risklik” arasındakı əlaqə hipotezləri təsdiqini tapmaya bilər. Bu baxımdan, sırada neçənci dayanmaqdan daha çox, beynəlxalq reytinq önəmlidir”.

Deputat onu da vurğulamışdı ki, Maliyyə Nazirliyi tərəfindən fiskal gəlirlərin daha da artırılması ilə bağlı fəaliyyətlər təqdirəlayiqdir: “Bununla yanaşı, bu vəsaitlərə bank sektorunda bərabər çıxış imkanlarının yaradılması da vacibliyini qoruyub saxlayır”.

Yola salmaq üzrə olduğumuz həftə isə Sahil Babayev yenidən tənqid hədəfinə çevrilib. Bu dəfə tanınmış iqtisadçı ekspert Natiq Cəfərli onu yanlış qərar və addımlarına görə tənqid edib: “Yeni Maliyyə Naziri ”əjdaha suyun qabağını kəsən kimi” büdcə xərcləmələrini azaltmağa çalışır, ”qənaət” edib, dövlətin pulunu ”depozitə” qoyub, büdcə üçün əlavə gəlir götürməyə səy göstərir. Problem odur ki, hər iki məsələ Maliyyə Nazirliyinin görəcəyi iş, əsas vəzifəsi deyil”.

Ekspert yeni maliyyə nazirinin ölkə iqtisadiyyatının ”can damarı”nın büdcə xərcləri olduğunu anlamadığını qeyd edib: ”Demirəm ki, bu yaxşıdır, amma, təəssüf ki, belədir. Sadə, hətta, primitiv modelə söykənən Azərbaycan iqtisadiyyatı büdcədən ”qidalanır”. Məsələn, büdcə hesabına məktəb tikilir (korrupsiyanı qoydum qırağa) - bunun daşı, sementi, betonu, şepeni, qapısı-pəncərəsi, dam örtüyü, stolu-stulu, lövhəsi, kompyuteri və s. büdcə pulu ilə özəl sektordan alınır. Özəl sektor bu sifarişlər olmasa, lap can verər, indi zorla ayaqdadır. Maliyyə Nazirliyi ”xəsisliyə” başlayan, pulu az və gec ayıran kimi özəl sektorda ”boğulma” başlayır. Ciddi biznes şəraiti, böyük ”oyunçular” yoxdur ki, özəl sektor öz çarxını, özü döndərsin”.

İqtisadçı ekspertin sözlərinə görə, ”Neft-büdcə-tikinti-özəl sektor” sxemi üzərini inşa edilən primitiv modelin, ”zəncirin əsas həlqəsi”, büdcə pulu azalan kimi, digər həlqələr də ”dizini yerə qoyur”: ”Maliyyə və İqtisadiyyat Nazirliklərinin əsas məqsədi iqtisadi artım-ÜDM artımı, rifah, iş yerlərinin artması və ölkə əhalisinin yüksək gəlirli iqtisadi modelə keçidini təmin etməkdir. Əgər bu ilin ilk 7 ayında ölkədə ÜDM cəmi 0,9% artıbsa, əslində isə məmləkət ressesiya ilə üzləşibsə, deməli hər iki nazirlik sinifdə qalıb”.



Maliyyə Nazirliyi ekspertin iddia və ittihamlarına hələlik reaksiya verməyib. Belə görünür, tənqidlər, iradlar baxımından Sahil Babayev üçün yeni postundakı günləri əvvəlki vəzifəsində olduğu vaxtlardan daha qaynar keçəcək.

Xatırladaq ki, 7 il əmək və əhalinin sosial müdafiəsi naziri işləyən Sahil Babayev həmin vəzifəyə 38 yaşında təyinat almışdı. Hazırda 45 yaşı olan maliyyə naziri bu vəzifəyə gətirildikdən sonra daha bir addımı ilə gündəmə gəlmişdi. İddialara görə, təzə postunda onun ilk atdığı addım Maliyyə Nazirliyinin keçirdiyi tenderləri dayandırması olub. Hətta bəzi dövlət satınalmalarının ləğv edilməsi və yenidən baxılaraq, təqdim edilməsi barədə göstəriş verdiyi də vurğulanır. Bunu bəzi media orqanları onun tenderlər üzərində tam nəzarət qurmaq istəyi ilə əlaqələndirirdilər.

***Toğrul Əliyev***

31_27 IYUl-QARA.qxd 8/21/2025 11:28 PM Page 10



# Şərurlu İsfəndiyara növbəti ağır ittihamlar

## Qalmaqallı tikinti maqnatı indi də 1000-dən çox mənzilin “kupça”sını vermir, üstəlik, şikayətçilərə kinayə edir - Vətəndaşlar üsyanda!

***“Şərur” MTK-nın rəhbəri, qalmaqallı iş adamı İsfəndiyar Axundov növbəti dəfə ittiham hədəfinə çevrilib. “Şərurlu İsfəndiyar” kimi tanınan tikinti maqnatı yenə mənzil sahiblərinin şikayətləri ilə üzləşib.***

Şikayətlərdən belə məlum olur ki, o, satdığı mənzillərin “kupçası”nı vermək istəmir. Mənzil sahibləri uzun illərdir mülkiyyət hüququnu təsdiq edən sənədi - çıxarışı ala bilmirlər.

“Şərur MTK”nın Yasamal rayonu, xarici dairəvi yol-6 ünvanındakı yaşayış binasında mənzil sahibi olan Azər Əliyev üzləşdiyi qanunsuzluqla bağlı “Sitat.info”ya danışıb. Vətəndaş bildirib ki, mənzilin pulunu tam şəkildə ödəsə də, şirkətdən “kupça” ala bilmir: “İki il əvvəl “Şərur MTK”dan mənzil aldım. Sıfırdan təmiri etdim, qaz, su, işıqla bağlı hər bir sənədi qaydasına saldım.



Mənzili 3 illik kreditlə götürmüşdüm, ancaq 1 il ərzində kreditimi tam ödəyib bağladım. Artıq evimin çıxarışını almaq istəyirəm. Dəfələrlə müraciət etmişəm, lakin “Şərur MTK”nın nümayəndələri qulaqardına vururlar. Deyirlər ki, nə problem var, yaşayırsınız da...”.

Mənzil mülkiyyətçisi A.Əliyev onun kimi yüzlərlə sakinin bu haqsızlıqla üzləşdiyini deyib: “1000-dən çox sakin evinin sənədini ala bilmir. İsfəndiyar özünəməxsus bir sistem qurub, vətəndaşı əzir, haqqını tapdalayır. 1000-dən çox sakin evinə “kupça” ala bilmir. Bütün sənədlər qaydasındadır, ancaq Şərurlu İsfəndiyar qanunları çeynəyir, heç kimi də vecinə almır. Təsəvvür edin ki, “Şərur MTK”nın bizə satdığı evləri təmir etdirən zaman başımıza açmadıqları oyun qalmadı. Evə kran vasitəsi ilə qaldırdığımız yük üçün şirkət 900 manat pul aldı. Vermək istəməyəndə işığımı kəsirdilər”.

Şikayətçi hesab edir ki, sənədləşmə prosesini qəsdən uzadırlar və burada da ciddi “maraqları” var: “Onun marağı budur ki, alqı-satqı prosesi olarsa, şirkət bunu özü həyata keçirsin. Mənzil addan-ada keçən zaman 2500-3000 manat məbləği özləri mənimsəyirlər. Çıxarış olanda isə, “ASAN xidmət”də 200-300 manat dövlət rüsumunu ödəyib alqı-satqını rahat həyata keçirmək olur. Bu zaman dövlət büdcəsinə pul ödəyirsən. Şərur MTK isə prosesi uzadır , alqı-satqı müddətində vətəndaşlar satış edə bilmirlər. Həm sakinlərə əziyyət verirlər, həm də proses baş tutanda 2500-3000 manat məbləğində pulu özləri mənimsəyib ciblərinə qoyurlar. Bu yolla həm də dövlət büdcəsinə gedəcək vəsaiti mənimsəmiş olurlar”.

Məsələ ilə bağlı iş adamı İsfəndiyar Axundovla əlaqə saxladıqda onun reaksiyası belə olub: “Notariusa getsinlər, çıxarışı oradan alsınlar...”.

Şikayəçi isə bildirib ki, iş adamının bu cavabı absurddur: ““Notarius “kupça” vermir. Şirkət tərəfindən sənədlər “BT”-yə göndərilməlidir ki, digər proseslər başladılsın. Bunu özləri yaxşı bilirlər...”.

Qeyd edək ki, “Şərurlu İsfəndiyar”ın tikdiyi binalardan mənzil alanların ən müxtəlif mövzularda şikayətləri artıq adət halına alıb. Bu şikayətlərin bir çoxu isə hətta məhkəmə predmetidir. Hətta iyunda Binəqədi Rayon Məhkəməsində keçirilən proseslərin birində Emil Səməndərov adlı şikayətçinin vəkili Asim Abbasov ilginc iddia ilə çıxış etmişdi. O bildirmişdi ki, təkcə adı çəkilən məhkəmədə İsfəndiyar Axundov barəsində 40-a yaxın məhkəmə işi var. Ümumiyyətlə isə iddiaçı tərəfin vəkilinin dediyinə görə, əldə edilmiş sorğulardan bəlli olub ki, İsfəndiyar Axundov ən çox şikayət olunan iş adamıdır.

Tikinti maqnatı isə özünü bir qayda olaraq “toxunulmaz” aparır, mediaya açıqlamalarında hansısa şikayətlə bağlı ya istehzalı cavablar verməklə, ya da “süddən çıxmış ağ qaşıq olduğunu” söyləməklə kifayətlənir. Hətta apreldə onun “10 nəfərdə çox savadlı adam götürmüşəm işə. Mən oturmuşam başda, çoban. Alimlər işləyir, pullar da gəlir” məzmunlu açıqlaması geniş müzakirələrə səbəb olmuşdu. Hətta sabiq təhsil naziri Misir Mərdanov qalmaqallı biznes adamına sərt sözlərlə cavab vermişdi: “Şərurlu İsfəndiyar camaatla bir növ oynayır. Vətəndaşların başına oyun açan birindən nə gözləyəsən? İsfəndiyar Axundov bir evi beş adama satan biridir. Elə bilir ki, bu özü bir evi beş adama satdığı kimi, diplom da satılır”.

Elə indi də 1000-dən artıq mənzil sahibinə çıxarış vermək istəməyən tikinti maqnatının şikayətçilərə “notariusa getsinlər, çıxarışı oradan alsınlar” şəklində cavabı da onun özünə arxayınlığının, vətəndaş narazılıqlarına biganə, üstəlik, kinayəli münasibətinin göstəricisi sayıla bilər. Onun bu cəsarəti haradan aldığı isə artıq başqa söhbətin mövzusudur...

***Toğrul Əliyev***

# QHT-lər üçün 2026-cı il üzrə qrant müsabiqələri elan olunacaq - Agentlik



***“Yaxın günlərdə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi 2026-cı il üzrə qrant müsabiqələrini elan edəcək”.***

“Unikal” xəbər verir ki, bu barədə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin İctimaiyyətlə əlaqələr üzrə meneceri Ülviyyə Qarayeva bildirib.

Ü.Qarayeva deyib ki, QHT-lərin layihə təkliflərini hazırlamaq üçün 2 ay vaxtı olacaq. Qrant məbləğlərinin yuxarı həddi kiçik qrant üzrə 15 min, orta qrant üzrə 30 min, böyük qrant üzrə 50 min manatdır: “7 əsas mövzu istiqaməti veriləcək. Onlardan 3 mövzu istiqaməti üzrə layihələr yalnız QHT koalisiyası adından qəbul olunacaq. Koalisiya minimum “1 yerli QHT+1 xarici QHT” formatındadır, əsas icraçı yalnız yerli QHT ola bilər”.

Agentlik təmsilçisi onu da xatırladıb ki, 2025-ci ilin aprelində Bakıda Qlobal Cənub QHT Platforması təsis edilib. İlk dəfə Azərbaycan vətəndaş cəmiyyətinin irəli sürdüyü təşəbbüs dünya ölkələrinin 3/2 hissəsini əhatə edən nəhəng regiondan beynəlxalq dəstək qazanıb və 116 ölkədən QHT-lər bu ideya naminə Bakıya toplaşaraq birgə platforma qurub: “Platforma Bakını Qlobal Cənub QHT-lərin təşəbbüslərinin əsas mərkəzinə çevirməkdədir. Çox şadıq ki, Azərbaycan QHT-ləri artıq lokal çərçivəni və ölkə xaricindəki fraqmentar təşəbbüslər həyata keçirmək mərhələsini adlayıb. Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi də 2026-cı il üzrə qrant müsabiqələri elanında beynəlxalq əməkdaşlıq üçün stimullaşdırıcı addımlar atıb”.

Ülviyyə Qarayeva onu da qeyd edib ki, bu dəfə də QHT-lər əsas mövzulardan kənar - aktual hesab etdikləri milli, ictimai və beynəlxalq əhəmiyyətli istənilən mövzuda da layihə təklifi ilə çıxış etməkdə sərbəst olacaq.

# Piyadalar magistral yolda yolu haradan keçməlidirlər? - BDYPİ açıqladı



***Baş Dövlət Yol Polisi İdarəsinin maarifləndirici “1 sual - 1 cavab” rubrikası hərəkət iştirakçılarının ən çox maraqlandığı məsələləri işıqlandırmağa davam edir. Rubrikada bu dəfə magistral yollarda piyadaların hərəkəti mövzusu gündəmə gətirilib.***

”Unikal” xəbər verir ki, magistral yollar sürət rejiminin yüksək olduğu, intensiv hərəkətin müşahidə edildiyi ərazilərdir. Belə yollarda piyadaların qaydalara uyğun davranışı həm onların özlərinin, həm də digər hərəkət iştirakçılarının təhlükəsizliyi üçün həlledici əhəmiyyət daşıyır.

Rubrikada məhz bu mövzuya toxunularaq “Piyadalar magistral yolda yolu haradan keçməlidirlər?” sualına rəsmi izah verilib.

Layihənin məqsədi hərəkət iştirakçılarının gündəlik həyatda üzləşdiyi suallara sadə və aydın cavablar təqdim etməklə onların yol hərəkəti qaydaları barədə biliklərini artırmaqdır.

# İrandan Azərbaycana narkotikin keçirilməsinin qarşısı alındı

***Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının ”Lənkəran” sərhəd dəstəsinin xidməti ərazisində İrandan Azərbaycan istiqamətinə dövlət sərhədinin pozulması halının qarşısı alınıb.***

Bu barədə ”Unikal”a DSX-dən məlumat verilib. Bildirilib ki, keçirilən sərhəd axtarışı və əməliyyat tədbirləri nəticəsində xidməti ərazidən ümumi çəkisi 13 kiloqram 100 qram narkotik vasitə marixuana aşkar olunaraq götürülüb.

Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

31_27 IYUl-QARA.qxd 8/21/2025 11:28 PM Page 11



## Rəqsanə İsmayılovanın əri Fazil Əmiraslanov istintaqa cəlb olunub



***Dələduzluqda ittiham olunaraq həbs edilən müğənni Rəqsanə İsmayılovanın həyat yoldaşı Fazil Əmiraslanov istintaqa cəlb olunub.***

"Unikal" Apa-ya istinadən xəbər verir ki, Fazil Əmiraslanov Bakıya gəlib və artıq istintaqda ifadə verib.

Qeyd edək ki, avqustun 16-da Sabunçu rayonunda polis əməkdaşlarının vətəndaşlardan daxil olan şikayətlər əsasında həyata keçirdikləri tədbirlər nəticəsində dələduzluq etməkdə təqsirli bilinən 1979-cu il təvəllüdlü İsmayılova Rəqsanə İsmayıl qızı saxlanılıb.

Araşdırmalarla müəyyən edilib ki, o, iki nəfər zərərçəkən şəxsin ümumilikdə 35.000 manat dəyərində qızıl-zinət əşyalarını və 520.000 ABŞ dolları məbləğində pulunu dələduzluqla ələ keçirib.

Qeyd edilən faktlarla bağlı Sabunçu Rayon Polis İdarəsində Cinayət Məcəlləsinin xüsusilə külli miqdarda ziyan vurmaqla dələduzluq etmə maddəsi ilə cinayət işi başlanılıb və R.İsmayılova təqsirləndirilən qismində saxlanılaraq istintaqa cəlb olunub. Onun barəsində məhkəmənin qərarı ilə 4 ay müddətində həbs qətimkan tədbiri seçilib.

Rəqsanə İsmayılovanın həbsi ilə bağlı qərardan apellyasiya şikayəti verilib. Şikayətə bu gün Bakı Apellyasiya Məhkəməsində baxılacaq.

Rəqsanə İsmayılovadan şikayətçi olan Gündüz Məmmədov dünən videomüraciət yayıb. O, müraciətdə Rəqsanə İsmayılova və həyat yoldaşı Fazil Əmiraslanov tərəfindən aldadılmaları barədə danışıb.

## NİİM-dən yük avtomobillərinin sürücülərinə müraciət



***Daxili İşlər Nazirliyi Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin yük avtomobillərinin sürücülərinə müraciət edib.***

"Unikal" xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyi məlumat yayıb.

Bildirilib ki, ötən gün axşam saatlarında Nərimanov rayonu, Ziya Bünyadov prospekti, Yasamal rayonu, Tbilisi prospektində bir neçə nasaz yük avtomobilinin yollarda qalması metronun "20 Yanvar", "Koroğlu" stansiyaları və mərkəz istiqamətlərində süni nəqliyyat sıxlığının yaranmasına səbəb olub. Yüklə dolu belə avtomobillərin yollardan kənarlaşdırılması vaxt aldığından digər nəqliyyat vasitələri dəqiqələrlə sıxlıqda qalmalı olurlar. Xüsusilə də bəzi yük avtomobillərinin sürücüləri belə vəziyyətdə təhlükəsizlik qaydalarına əməl etmədiyindən qəza riski yaranır.

"Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi yük avtomobillərinin sürücülərinə müraciət edərək bildirir ki, yola çıxmazdan əvvəl avtomobilin texniki vəziyyəti yoxlanılmalıdır. Avtomobil yolun hərəkəti hissəsində texniki nasazlıq səbəbindən məcburi dayandıqda isə təhlükəsizlik təmin edilməli, qəza dayanma nişanı qoyulmalı və işıq siqnalı yandırılmalıdır", - məlumatda qeyd edilib.

## Peşə təhsili müəssisələrinə sənəd qəbulu başlayır

***Peşə təhsili müəssisələrinə sənəd qəbulu başlayır.***

Bu barədə "Unikal"a Peşə Təhsili üzrə Dövlət Agentliyindən bildirilib. Qeyd olunub ki, müsabiqədən keçən şəxslər 25 avqust saat 18:00-dək tələb olunan sənədləri qəbul olunduqları peşə təhsili müəssisəsinə təqdim etməklə qeydiyyatdan keçməlidirlər.

**ELAN**

FHN, Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti tərəfindən Novruzbəyova Mirvari Cəfər qızına verilmiş AA 08433 nömrəli gəmi biletləri itdiyi üçün etibarsız sayılır.

# Məmur maaşı ilə oliqarxlaşanların görünməyən üzü

## Həftənin sualı: vətəndaşlarla qanun dilində danışanlar növbə imkan və imtiyaz sahiblərinə çatanda niyə susurlar?

***Bu yaxınlarda mərkəzi media belə bir xəbər yaydı: Bakıda yaşayış ola-ola bina sökülür, nəticədə 40-a yaxın ailə təhlükə ilə üzüzədir!***

Xəbərdə deyilirdi ki, Nəsimi rayonu, Mirəsədulla Mirqasımov küçəsi, 4 ünvanında yerləşən binada yaşayan sakinlər iddia edirlər ki, fevral ayından özünü şirkətin əməkdaşları kimi təqdim edən şəxslər binanı sökməyə başlayıblar.

Sakinlərin dediyinə görə, binanın bir hissəsi söküldüyündən, qaz və suyun verilişində də problemlər yaranıb. Şirkət binadakı 170 mənzilin böyük bir hissəsinin sahibinə kompensasiya ödəyərək razılığa gəlib.

Amma 40-a yaxın ailə onların şərtləri ilə razılaşmadığından evlərini tərk etmirlər.

Ərazidə söküntü işləri aparan şirkətdən bildiriblər ki, sökülən binada 122 mənzil sahibi ilə razılaşılıb, müqavilə əsasında bəzilərinə kompensasiya ödənib, bəzilərinin isə kirayə haqqı verilməklə tikiləcək binadan mənzil verilməsi ilə razılığa gəlinib. Şirkətin rəsmi nümayəndəsi əlavə edib ki, narazı olaraq evlərini tərk etməyən sakinlər bazar qiymətinə uyğun ödəniş tələb etmirlər. "Onlar hər kvadratmetr sahəyə görə, bizdən 6 min manat tələb edirlər" - deyə şirkət rəsmisi bildirib.

Burada ilk baxışdan məsələ sadə təsir bağışlayır. Absurd və anormallıq isə bundan sonra başlayır. Məsələ orasındadır ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi də baş verənlərə münasibət bildirib və...

Və aydın olub ki, sözügedən şirkət həmin ünvanda bina tikintisi üçün müraciət etsə də, bəzi dövlət qurumlarının rəyi olmadığı üçün tikinti aparmaq üçün onlara müsbət rəy verilməyib!

Təsəvvür edin: yaşayışın olduğu bina faktiki olaraq dağıdılır, 40 yaxın ailənin, deməli, ən azı 150-200 insanın həyatı təhlükə altına atılır, bu işə qol qoyan şirkət qarşı tərəfi günahlandırır ki, sakinlər verdiyimiz pula qane olub mənzillərini tərk etmir, ancaq sonda da həmin şirkətin tikintiyə icazəsinin olmadığı aydınlaşır! Bəli, bu, absurd və anormallıq paytaxtın az qala ortasında, üstəlik, məmurların gözü qarşısında baş verir!

Elə bu cür şirkətləri cəsarətləndirən də onlardır - məmurlar!

Bir sadə vətəndaş şəxsi mənzilində pəncərəni belə yeniləsə, dəyişsə, yalan olmasın, əlli yerdən qalstuklu adam tökülüb gəlir, qanunvericilikdən hansısa tələblər sadalayıb həmin o binəva vətəndaşı əngəlləməyə çalışır, lakin yekə-yekə şirkətlər onlarca, yüzlərlə insanın həyatını təhlükə qarşısında qoyub min bir hoqqadan çıxırlar, di gəl, onlara nə gözün üstə qaşın var deyən tapılır, nə də qaşın üstə qara var söyləyən...

Ən xırda məsələdə belə vətəndaşlarla qanun dilində danışanlar, vətəndaşlara qanunvericiliyin tələblərini xatırladanlar növbə imkan və imtiyaz sahiblərinə çatanda susurlar, hər şeyə göz yumurlar, qanunları da unudurlar, vəzifə borclarını da...




Ölkə başçısı çıxışlarında dəfələrlə vurğulayıb: "Bəzi hallarda məmurlar vətəndaşlara yuxarıdan aşağı baxırlar. Onları saymırlar, onları təhqir edirlər, qudurğanlıq edirlər. Bütün bunlar var. Onlar aradan götürülməlidir... Hər bir dövlət məmuru öz vəzifə borcunu şərəflə yerinə yetirməlidir, insanlara qulluq etməlidir və təvazökar olmalıdır".

Bunun müqabilində ilk borcu vətəndaşa xidmət olan bir çox vəzifə sahiblərindən tam əksini görürük: sadə insanlara qarşı özünü az qala ağa kimi aparan məmurlar qarşılarında varlı-hallı, imkanlı şəxsləri, onların şirkətlərini görəndə əlpəncə dururlar. Səbəb aydındır: bu cür duruş onlara maddi mənfəət gətirir. Belə olmasa, dövləq qulluğunda çalışan bir çoxunun maaşı ilə lüks həyatı, bahalı maşınları, dəbdəbəli evləri arasında nonsens yaranarmı? Axı hətta bağça uşağı da bilir ki, əksər məmurların maaşı onların həddindən artıq təmtəraqlı yaşamasına advekvat deyil.

Hətta bəzi vəzifə sahiblərinin varidatı leqallaşsa, məlum olacaq ki, onlar "Forbes"in hər il açıqladığı dünya milyonçuları siyahısının ön sıralarında dayanmağa qadirdirlər!

Təəssüf ki, bu gün Azərbaycanda məmur deyiləndə daha çox göz önündə mənfi obraz canlanır. Bu obrazı dəyişmək üçün isə belə görünür çox gözləmək lazım gələcək. Bu, kiməsə pessimist bir yanaşma kimi görünə bilər, ancaq reallığı inkar etmək də mümkün deyil: vəzifəli şəxslərin bir belə həbsindən sonra da bəzi vəzifə sahibləri büdcə pullarını talamaqdan, vətəndaşları incitməkdən, onların problemlərinə laqeyd yanaşmaqdan, əvəzində isə qanunsuzluqlara göz yummaqdan çəkinmirlərsə, pessimist olmayasan neyləyəsən?!

***Sənan Mirzə***

## 5.3.17. ekologiya və ətraf mühitin mühafizəsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Köhnə avtomobillərin utilizasiyası atmosfer havasının çirklənməsinin qarşısını alır

## Orxan Cabbarov: "Ötən ilin oktyabr ayından bu günədək 9677 nəqliyyat vasitəsi utilizasiyaya verilib"

***Ekologiyanın və ətraf mühitin mühafizəsi dövlətin prioritet siyasətidir. Atmosfer havasının çirklənməsinin qarşısının alınması istiqamətində dövlət tərəfindən müxtəlif proqramlar həyata keçirilir. Onlardan biri də, nəqliyyat vasitələrinin utilizasiya proqramıdır.***

Ölkəmizdə hər il istismar olunan çox sayda nəqliyyat vasitəsi köhnəlmə və yol-nəqliyyat hadisələri nəticəsində istifadəyə yararsız hala düşür. Statistik göstəricilərə əsasən, hazırda respublikada hər beş avtomobildən biri ekoloji və təhlükəsizlik standartlarına cavab vermir. Bunu nəzərə alaraq, "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"na əsasən Azərbaycanda nəqliyyat vasitələrinin utilizasiyası proqramı hazırlanıb, həmçinin proqramın tətbiqi ilə əlaqədar ümumilikdə 10-dan çox qanunvericilik aktına dəyişiklik və əlavələr edilmişdir.

"Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanununun nəqliyyat vasitələrinin utilizasiyası ilə bağlı qüvvəyə minmiş olan müddəalarına uyğun olaraq, ötən müddət ərzində "Təmiz Şəhər" ASC tərəfindən utilizatorların reyestrdə qeydiyyatı üçün tədbirlər görülmüşdür.

Bəs görəsən hazırda istismara yararsız, ekologiyaya zərər vuran köhnə nəqliyyat vasitələrinin utilizasiyası istiqamətində görülən işlər nə yerdədir?

"Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Orxan Cabbarov "Unikal"ın sorğusuna cavabda bildirib ki, "Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanununun müddəalarına uyğun olaraq həyata keçirilən prosesdə ötən ilin oktyabr ayından bu günədək 9677 nəqliyyat vasitəsi utilizasiyaya verilib. Köhnəlmiş və ya yararsız nəqliyyat vasitələrini təhvil verən ərizəçilərin bank hesabına 570 min manatdan çox birdəfəlik ödəniş

birdəfəlik ödəniş almaq mümkündür.

O qeyd edib ki, nəqliyyat vasitələrinin utilizasiyaya verilməsi könüllülük prinsipi əsasında həyata keçirilir və məcburi xarakter daşımır.

O. Cabbarov bildirib ki, utilizator fəaliyyəti göstərən şirkətlərin də sayı günü-gündən artır.

Belə ki, nəqliyyat vasitələrini



köçürülüb, həmçinin 455 ədəd yerli istehsal yeni nəqliyyat vasitəsinin güzəştlə satışı həyata keçirilibdir.

Onun sözlərinə görə, utilizator fəaliyyəti üzrə nəzərdə tutulan tələblərə cavab verən "Fors" MMC reyestrdə qeydiyyata alınaraq istismar müddəti başa çatan, eləcə də istifadəyə yararsız nəqliyyat vasitələrinin qəbuluna başlanılıbdır. Nəqliyyat vasitələrinin utilizasiyaya təqdim olunmasını asanlaşdırmaq məqsədilə www.nvu.gov.az elektron portalı hazırlanıbdır.

Nəqliyyat vasitələrinin utilizasiyasının təşviq edilməsi, medianın və ictimaiyyətin məlumatlandırılması məqsədilə yeni yaradılan elektron portal ictimaiyyətə təqdim olunub.

O. Cabbarov deyir ki, mövcud tələblərə əsasən "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilən qaydada əvvəlcə nəqliyyat vasitəsi dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılmalıdır. Daha sonra zəruri məlumatlar yeni istifadəyə verilmiş portala daxil edilməklə nəqliyyat vasitəsi utilizasiyaya təqdim edilir. Nəqliyyat vasitəsi utilizasiyaya təqdim edildikdən sonra onu utilizatora təhvil verən şəxsə təsdiqedici sənəd təqdim edilir. Həmin sənəd əsasında yerli istehsal yeni nəqliyyat vasitəsi almaq üçün güzəşt və ya utilizasiya edəcək artıq üçüncü utilizator qeydiyyata alınıb.

"Nəqliyyat vasitələrinin utilizasiyası üzrə operator olan "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti tərəfindən növbəti utilizator - "Fast Track" MMC şirkəti reyestrdə qeydiyyata alınıb. Yeni utilizatora qeydiyyata alınması barədə müvafiq sənəd təqdim olunub və bununla da ölkə üzrə utilizatorların sayı 3-ə çatıb.

Şirkət utilizator fəaliyyətini Abşeron rayonunda həyata keçirəcək. Bu da nəqliyyat vasitələrinin utilizasiyaya təqdim olunmasında vətəndaşlar üçün əlçatanlığı artıracaq. Vətəndaşlar artıq Bakı və Gəncə ilə yanaşı, Abşeron rayonunda da nəqliyyat vasitələrini yeni utilizasiya məntəqəsinə təhvil verə biləcəklər.

Qeyd edim ki, utilizator kimi fəaliyyət göstərmək niyyətində olan sahibkarlar da bu fəaliyyəti həyata keçirmək barədə müstəqil olaraq özləri qərar verirlər. Belə ki, müvafiq maddi-texniki imkanlara malik olan sahibkarlar əvvəlcə "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinə müraciət edir və zəruri tələblərə cavab verməsi müəyyənləşdirildikdən sonra reyestrdə qeydiyyata alınır".

Məlumat üçün bildirək ki, nəqliyyat vasitələrinin utilizasiyası fondunun qalığı gəlirlər səviyyəsində olub. Bu, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin keçirilən iclasında müzakirəyə çıxarılan "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icrası barədə illik hesabat"da əksini tapıb.Hesabatda qeyd edilib ki, 2024-cü il ərzində Nəqliyyat vasitələrinin utilizasiyası fonduna qanunvericiliyə uyğun olaraq utilizasiya haqqı və sair gəlirlər hesabına daxil olan 52,1 milyon manat məbləğində vəsait hesabat ilində istifadə olunmadığı üçün onun qalığı gəlirləri səviyyəsində olub.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




# "Kənddən Şəhərə" yarmarkası təşkil olunacaq

***Avqustun 23-24 tarixlərində Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Aqrar Tədarük və Təchizat" ASC-nin təşkilatçılığı ilə paytaxtda növbəti "Kənddən Şəhərə" yarmarkası keçiriləcək.***

"Unikal" xəbər verir ki, bu barədə Kənd Təsərrüfatı Nazirliyi məlumat yayıb. Bildirilib ki, ənənəvi olaraq təşkil olunan bu yarmarka həm yerli fermerlərin satış imkanlarının genişləndirilməsini, həm də şəhər sakinlərinin sağlam və təbii məhsullarla təmin olunmasını hədəfləyir. Tədbirdə ölkənin müxtəlif bölgələrindən təxminən 20 regiondan 35-ə yaxın fermer iştirak edəcək. Fermerlər 100-ə yaxın çeşiddə kənd təsərrüfatı və qida məhsulunu şəhər sakinlərinə birbaşa təqdim edəcəklər.

Qeyd olunub ki, məhsulların təhlükəsizliyinə və keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edəcək. Hər hansı sualı olan alıcılar isə ərazidə fəaliyyət göstərəcək Səyyar Qida Laboratoriyasına yaxınlaşaraq məhsulları yerindəcə analiz etdirə biləcəklər.

"Yarmarka saat 09:00-dan 19:00-dək, iki gün ərzində Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi 5 ünvanında ("Gənclik" metro stansiyasının yaxınlığı) fəaliyyət göstərəcək.

Qeyd edək ki, iştirak edən fermerlərə piştaxtalar, tərəzilər və digər vacib avadanlıqlar ödənişsiz şəkildə təqdim olunur"-məlumatda bildirilib.

# Nazirlik küləkli hava ilə bağlı əhaliyə müraciət etdi

***Fövqəladə Hallar Nazirliyi (FHN) küləkli hava şəraiti ilə əlaqədar əhaliyə müraciət edib.***

Bu barədə "Unikal"a FHN-dən məlumat verilib.

Bildirilib ki, Milli Hidrometeorologiya Xidmətinin məlumatına görə, bu gün günün ikinci yarısından başlayaraq avqustun 22-dək ölkə ərazisində, o cümlədən Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişərək güclü külək əsəcəyi, bəzi rayonlarda leysan xarakterli yağış yağacağı və şimşək çaxacağı proqnozlaşdırılır.

Qeyd olunanları nəzərə alaraq, FHN əhaliyə müraciət edərək müvafiq təhlükəsizlik qaydalarına riayət etməyə çağırır:

"Belə ki, güclü külək zamanı yüngül konstruksiyalı və müvəqqəti tikililərdən, bina və reklam lövhələrindən uzaq durmaq, elektrik dirəyi və naqillərinin, hündür ağacların altında dayanmamaq tövsiyə olunur. Güclü küləyin baş verən yanğınların söndürülməsi ilə əlaqədar yaratdığı çətinlikləri nəzərə alaraq, küləkli hava şəraitində yanğın təhlükəsizliyi qaydalarına xüsusilə ciddi riayət edilməlidir".

Nazirlik küləkli hava şəraitində dənizə girməyin təhlükəli olduğunu xatırladır və müvafiq təhlükəsizlik qaydalarına ciddi riayət olunmasının zəruriliyini bildirir:

"Eyni zamanda, ildırımla bağlı təhlükələrdən qorunmaq üçün elektrik cihazlarını şəbəkədən ayırmaq, telefonla (sabit şəbəkə, mobil, taksofon və s.) danışmamaq, açıq havada olarkən elektrik xətti, ildırım ötürücüsü, navalça və antenaya yaxınlaşmamaq, hündür ağacların altında daldalanmamaq və bu məqsədlə nisbətən çökək yer seçmək, avtomobildə olduqda isə hərəkəti dayandıraraq şüşələri qaldırıb ildırımın bitməsini gözləmək lazımdır".



## "Zəngəzur dəhlizi"nin bu hisssəsində tikinti başlayır

***Avqustun 22-də Türkiyə və Azərbaycan sərhədində yerləşən Qarsdan Dilucuya dəmir yolu xəttinin tikintisinə başlanılacaq.***

Bu barədə "Vesti Kavkaz"ın məlumatında bildirilib. Türkiyəni Naxçıvanla birləşdirəcək dəmir yolunun tikintisinə başlanması ilə bağlı rəsmi mərasim İğdır şəhərində keçiriləcək. Bu barədə Türkiyənin Nəqliyyat Nazirliyinin rəhbəri Abdulkadir Uraloğlu bildirib.

Məlumata görə, dəmir yolu "Zəngəzur dəhlizi" layihəsinin bir hissəsi olacaq. Nəqliyyat arteriyası Türkiyənin şərqində logistikanı yaxşılaşdırmaq üçün nəzərdə tutulub. Yolun həm də mühüm geostrateji əhəmiyyəti olacaq.

Layihənin həyata keçirilməsinə təxminən 2,4 milyard avro ayrılacaq. Marşrutun uzunluğu 224 km olacaq.

## Keçmiş rektor vəfat etdi

***Azərbaycan Kooperasiya Universitetinin sabiq rektoru Mahmud Quluzadə vəfat edib.***

"Unikal" xəbər verir ki, professor 86 yaşında dünyasını dəyişib. O, 1992 - 1994-cü illərdə Azərbaycan Kooperasiya Universitetinə rəhbərlik edib.

1995-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinə dəvət alıb. Həmin ildən Azərbaycan Dövlət İqtisad Universitetinin "Sosial sferanın iqtisadiyyatı və idarəedilməsi" kafedrasında dosent vəzifəsində işləyirdi.

2017-ci ilin mayında UNEC-in Fəxri professoru adına layiq görülüb.

## İtkin düşən 7 nəfər tapıldı

***İtkin düşmüş kimi axtarışı aparılan 7 nəfər tapılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyi məlumat yayıb.

Bildirilib ki, avqustun 20-də polis əməkdaşlarının keçirdikləri tədbirlərlə ailə üzvlərini məlumatlandırmadan yaşadığı ünvanı tərk etdiyinə görə itkin düşmüş kimi axtarışı aparılan 7 nəfər tapılaraq aidiyyəti üzrə təhvil verilib.

## Əhaliyə göstərilən ödənişli xidmətlər

**2025-ci ilin yanvar-iyun aylarında** əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri müqayisəli qiymətlərlə 2024-cü ilin eyni dövrünə nisbətən 1,9 faiz artaraq 29601,0 min manat təşkil etmiş, hüquqi şəxslər tərəfindən əhaliyə 6778,8 min manat, hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 22822,4 min manat xidmətlər göstərilmiş və xidmətlərin ümumi həcmində onların xüsusi çəkisi müvafiq olaraq 22,9 və 77,1 faizi təşkil etmişdir.

***Ucar Rayon Statistika İdarəsinin rəis müavini Emin Qəhrəmanov***

# "Azərbaycan Dəmir Yolları" 300 yeni vaqon alıb

***"Azərbaycan Dəmir Yolları" QSC (ADY) vaqon parkının genişləndirilməsi və modernləşdirilməsi məqsədilə daxili investisiya hesabına 300 ədəd yeni vaqon alıb.***

"Unikal" səhmdar cəmiyyətinə istinadən xəbər verir ki, vaqonlardan 200-ü yarımvaqon, 100-ü isə universal platforma vaqondur. Platforma vaqonların yükqaldırma qabiliyyəti 72 ton, istismar müddəti 32 ildir. Bu vaqonlar xüsusən konteyner daşımaları üçün yüksək səmərəli, çevik və sərfəli həll yoludur, həm standart 20, həm də 40 futluq konteynerlər üçün uyğundur.

ADY-nin vaqon parkında platforma vaqonların artırılması konteyner yüklərinin daşınmasına olan tələbatın qarşılanmasına imkan verəcək. Son dövrdə Çin və Azərbaycan arasında Orta Dəhliz üzrə xüsusilə konteyner yüklərin artması müşahidə olunur. 2025-ci ilin 7 ayında Çindən 225 blok-qatar qəbul edilib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 2 dəfəyə yaxın artım deməkdir. İlin sonunadək isə 400-dən çox blok-qatarın qəbulu gözlənilir. 7 ayda ümumilikdə blok-qatarlarla 24 min TEU yük daşınıb, bu da ötən ilin analoji dövrü ilə müqayisədə təxminən 2 dəfə çoxdur.



Platforma vaqonlarda konteynerlə yanaşı, taxta-şalban, boru, rels, ağır və iriölçülü digər yükləri daşımaq mümkündür. Sadələşdirilmiş dizaynı sayəsində yan və yuxarı hissələrdən yükləmə və boşaltma işləri asan həyata keçirilir, nəticədə vaqonda aparılan yükləmə və ya boşaltma əməliyyatının müddəti azalır.

Yarımvaqon modellər isə iriölçülü və xüsusi formada daşınan yüklərin, o cümlədən taxta, qırmadaş və digər bərk tikinti materiallarının nəqli üçün uyğundur. Yükqaldırma qabiliyyəti 70 ton, həcmi 85 kubmetr olan vaqonların istismar müddəti 22 ildir.

Yüksək həcmə və yük tutumuna malik olması yarımvaqonları kütləvi daşımalarda etibarlı və qənaətcil edir. Kömür, metallurgiya, tikinti və kənd təsərrüfatı sənayesində əvəzolunmaz daşıma vasitəsi olan yarımvaqonların üstünün açıq olması və mürəkkəb mexanizmlərin olmaması texniki xidmət, boşaltma və təmir işlərini asanlaşdırır.

Yüksək texniki göstəricilərə malik yeni yük vaqonları həm daxili, həm də Azərbaycan ərazisindən keçən Şimal-Cənub və Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizləri üzrə tranzit yükdaşımalarda istismar olunacaq, əməliyyatların daha sürətli və səmərəli həyata keçirilməsinə imkan yaradacaq.

Azərbaycan ərazisindən keçən beynəlxalq marşrutlar üzrə tranzit yüklərin davamlı artmasını nəzərə alaraq, ADY yüklərin təhlükəsiz daşınması məqsədilə lokomotiv və vaqon parkının yenilənməsi və genişləndirilməsi işlərini davam etdirir. Bu ilin aprel ayında ADY Çin istehsalı olan 7 ədəd yeni lokomotiv və ehtiyat hissələrinin alınması haqqında müqavilə imzalayıb. Növbəti mərhələdə 14 ədəd magistral lokomotivin parka daxil edilməsi nəzərdə tutulur.

# 2025-ci ilin yanvar-iyun aylarında Ağdaş rayonunun istehsal və xidmət sahələri üzrə əsas göstəriciləri

***2025-cü ilin yanvar-mart aylarında Ağdaş rayonunda istehsal olunmuş məhsul və xidmətlərin 77,6 faizi istehsal sahələrinin, 22,4 faizi isə xidmət sahələrinin payına düşmüşdür.***

Rayonun əsas istehsal sahəsi olan kənd təsərrüfatı müəssisələrində, fərdi sahibkar, ailə-kəndli və ev təsərrüfatlarında 132 milyon 458,1 min manatlıq məhsul istehsal olunmuşdur ki, onun da 69 milyon 905,1 min manatı bitkiçiliyin, 62 milyon 553,0 min manatı isə heyvandarlıq məhsullarının payına düşmüşdür. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatı məhsulları istehsalı müqayisəli qiymətlərlə 0,7 faiz, o cümlədən bitkiçilik məhsulları üzrə 1,3 faiz, heyvandarlıq məhsulları üzrə isə faiz 0,1 faiz artmışdır.

2025-ci ilin yanvar-iyun aylarında rayonun 16 sənaye müəssisəsi və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar, habelə ev təsərrüfatları tərəfindən 52 milyon 49,4 min manatlıq və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən sabit qiymətlərlə 12,5 faiz az sənaye məhsulu istehsal edilmiş və sənaye xarakterli xidmətlər göstərilmişdir. Bu dövrdə sənaye məhsulunun 87,4 faizi emal, 10,7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1,8 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur. İstehsal olunmuş sənaye məhsulunun 6 milyon 460,8 min manatı və ya 12,4 faizi dövlət, 45 milyon 588,6 min manatı və ya 87,6 faizi isə qeyri-dövlət sektorunun payına düşmüşdür. İstehsal olunmuş sənaye məhsulunun 45 milyon 806,3 min manatı və ya 88,0 faizi hüquqi şəxslərin, 4 milyon 555,3 min manatı və ya 8,8 faizi ev təsərrüfatlarının, 1 milyon 687,8 min manatı və ya 3,2 faizi isə fərdi sahibkarların payına düşmüşdür.

2025-ci ilin yanvar-iyun aylarında rayonda 17 milyon 140,3 min manatlıq tikinti-quraşdırma işləri yerinə yetirilmiş, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 20,5 faiz azdır. Mərkəzləşdirilmiş qaydada istifadə edilən investisiya hesabına görülmüş tikinti-quraşdırma işləri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 24,6 faiz azalmış, yerli imkanlar hesabına görülmüş tikinti-quraşdırma işləri isə 20,4 faiz artmışdır. Tikinti-quraşdırma işlərinə yönəldilmiş vəsaitin 14 milyon 784,3 min manatı və ya 86,3 faizi dövlət, 2 milyon 356,0 min manatı və ya 13,7 faizi isə qeyri-dövlət mülkiyyətinin payına düşmüşdür.

Rayonda ticarət, nəqliyyat vasitələrinin təmiri, nəqliyyat və anbar təsərrüfatı və informasiya və rabitə sahələrində 58 milyon 264,7 min ma-




natlıq xidmətlər istehsal olunmuşdur. Bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə sabit qiymətlərlə 1,3 faiz çoxdur. İstehsal olunmuş xidmətlərin 54 milyon 573,1 min manatı və ya 93,7 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində, 3 milyon 627,4 min manatı və ya 6,2 faizi nəqliyyat və anbar təsərrüfatı sahəsində, 64,2 min manatı və ya 0,1 faizi informasiya və rabitə sahəsində olmuşdur. Ticarət şəbəkələrində əhaliyə 170 milyon 540,8 min manatlıq istehlak malları satılmış və 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə rayonda sabit qiymətlərlə 1,8 faiz çox istehlak malları realizə olunmuşdur.

***Ağdaş Rayon Statistika İdarəsi***

31_27 IYUI-QARA.qxd 8/21/2025 11:28 PM Page 14



# Onlar ali məktəbə imtahansız qəbul oldular

***Hər il ölkəmizdə gənclər beynəlxalq fənn olimpiadalarında iştirak edərək öz bilik və bacarıqlarını nümayiş etdirir, uğurları ilə həm fərdi, həm də ölkəmiz üçün qürurverici nəticələr əldə edirlər.***

Bu il ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul hüququ qazanan gənclər arasında Nəzrin Həsənova və Yunis İsayev də var.

"Unikal" xəbər verir ki, beynəlxalq səviyyəli olimpiadanın qalibi olan bu gənclər "Azərbaycan müəllimi" ilə öz təəssüratlarını bölüşüb, beynəlxalq yarış təcrübəsi və gələcək planları haqqında danışıblar.



Nəzrin Həsənova bu il Kimya-biologiya təmayüllü Respublika liseyini bitirib. O, müsabiqədənkənar qəbul vasitəsilə Xəzər Universitetinin "Kimya mühəndisliyi" ixtisasını seçib. Nəzrin deyir ki, tətbiqi kimyaya marağı məktəb dövründə iştirak etdiyi olimpiadalarla başlayıb:

"Kimya elmi ilə yaxından məşğul olduqca bu elmin digər sahələrlə inteqrasiyası və tətbiq olunduğu sahələrin çoxluğu məni cəlb etdi. Olimpiadalara 8-ci sinifdən hazırlaşmağa başladım. Həmin dövrdə liseyin olimpiada sinfində təhsil alırdım. Əvvəl biologiya fənnindən olimpiadalara hazırlaşsam da, sonradan kimya müəllimim Elnur Nəbiyevin yaratdığı həvəs məni hazırlıqlarımı bu fənn üzrə davam etməyə təşviq etdi. Həm olimpiada sinfində oxumağım, həm də dərslərin düzgün təşkili həmin il Respublika fənn olimpiadalarında medal qazanmağıma kömək etdi.

Düşünürəm ki, elm olimpiadalarını idman yarışlarından fərqləndirən və daha çətin edən məqam odur ki, idman yarışlarında qalib olmaq üçün həm fiziki, həm də mənəvi güc tələb olunur. Elm olimpiadalarında isə fiziki yükün əvəzinə bütün yükü beyin daşıyır".

Nəzrin vurğulayıb ki, gün ərzində imtahanlardan asılı olaraq 3-4, bəzən isə 6-7 saat çalışıb. Çətinliklərlə üzləşəndə o, əsas hədəflərini xatırlayaraq intizamı qorumağa çalışıb. Bildirib ki, ailəsi və müəllimləri bu prosesdə ona çox dəstək olublar.

Nəzrin qeyd edib ki, olimpiada zamanı keçirilən ekskursiyalar və imtahanlardan sonrakı oyunlar çox maraqlı olurdu. O hesab edir ki, bu qərar (müsabiqədənkənar qəbul) ölkəmizdə şagirdlər üçün böyük bir fürsətdir. Xüsusilə son illərdə daha çox məktəblinin olimpiadalarda iştirak etməsi təqdirəlayiqdir.

Gələcək planlarından danışan Nəzrin bildirib ki, xaricdə təhsil almağı düşünür: "Oradan əldə etdiyim bilik və yenilikləri ölkəmizdə tətbiq edib onun inkişafına dəstək olmaq istəyirəm. Erkən yaşdan olimpiadalara başlamaq gələcək üçün böyük üstünlükdür. Buna görə də ailələrin Elm və Təhsil Nazirliyinin keçirdiyi olimpiadalar barədə məlumatlı olması və şagirdləri bu istiqamətə yönləndirməsi vacibdir. Şagirdlərə tövsiyəm odur ki, olimpiadalara hazırlaşarkən məqsədli, planlı olsunlar və özlərinə inansınlar".

Yunis İsayev Fizika, riyaziyyat və informatika təmayüllü liseyin məzunudur. Aşağı siniflərdən riyaziyyat və informatikaya böyük maraq göstərib və bu səbəbdən ADA Universitetində "Kompüter elmləri" ixtisasını seçib: "Bu ixtisas hər iki fənni özündə birləşdirir. Həmçinin günümüzdə kompüterləşmənin artması bu sahənin vacibliyini bir daha təsdiqləyir".

Yunis həm yerli, həm də beynəlxalq səviyyəli bir sıra yarışlarda iştirak edib. Onun uğurları sırasında RFO və müxtəlif bilik yarışları, beynəlxalq miqyasda isə Yeniyetmələrin Balkan Riyaziyyat Olimpiadası, "İstedadların Hazırlığı Laboratoriyası" Beynəlxalq Olimpiadası və Balkan Riyaziyyat Olimpiadası yer alır: "Riyaziyyata marağım hələ kiçik yaşlarımdan başlayıb. Bu marağın formalaşmasında ailəmin, müəllimlərimin dəstəyi, xüsusilə də riyaziyyat olimpiadalarında uğur qazanmış əmioğlumun təsiri böyük olub. Onun olimpiadaçı olması məndə də həvəs yaratdı. Olimpiadaya hazırlıq maraqlı, eyni zamanda çətin idi. Gündəlik çalışma saatlarım dəyişsə də, ümumilikdə 5-8 saat hazırlaşırdım".

Yunis beynəlxalq yarışlarda iştirakını xatırlayaraq deyir: "Digər ölkələrdən olan olimpiadaçılarla tanış olmaq və onlarla ünsiyyət qurmaq çox qürurverici və əyləncəli idi. Birlikdə müxtəlif fəaliyyətlərdə iştirak etdik və bu da dostluq mühitinin yaranmasına səbəb oldu. Ciddi çətinliklərlə qarşılaşmadım, lakin imtahanlara görə bəzən başqa dərslərə daha az vaxt ayırmalı olurdum".

Onun fikrincə, müsabiqədənkənar qəbul olimpiadaya marağı artıran mühüm stimuldur: "Bu addım uşaqlara göstərir ki, əməkləri nəticəsiz qalmayacaq".

Gələcək planlarına gəldikdə isə Yunis universiteti bitirdikdən sonra magistr təhsilini xaricdə davam etdirməyi düşünür. Boş vaxtlarında futbol oynamaq, stolüstü tennis, futbol izləmək, musiqi dinləmək və kitab oxumaq Yunisin sevimli məşğuliyyətləridir.

## Dillərdə qəhrəmanlıq dastanına dönən Azad



***Birinci Qarabağ savaşında Vətən, torpaq uğrunda canını fəda edən qeyrətli oğlanlardan biri də Azad Bayramovdur.***

İgidliyi və cəsarəti ilə qəlblərdə özünə əbədi abidə ucaldan bu Vətən sevdalısı 28 may 1973-cu il tarixində Lerik rayonunun Siyov kəndində müəllim ailəsində dünyaya göz açıb.

1980-cı ildə M.Qafarov adına Siyov kənd tam orta məktəbinin birinci sinfinə gedib, 1990-cı ildə həmin məktəbin 10-cu sinfini bitirib. Dərslərində "əla" qiymət alıb, istedadı, nümunəvi tərbiyəsi, vətənpərvərliyi ona böyük sevgi qazandırıb. El-obada hamı Azadın Vətəninə ləyaqətli övlad olacağına inanıb.

Qəlbi Vətən, xalq üçün şirin-şəkər arzularla dolu olan, gəncliyin ən ülvi duyğular dövrünə qədəm qoyan Azadın ali təhsil almağına yağı düşmənin Qarabağımıza ədalətsiz təcavüzü imkan verməyib. Lerik Rayon hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılan Azad döyüş bölgəsində Vətən torpaqlarının keşiyini çəkib. Azğın dığalara qarşı döyüş yolu Füzulidən başlayıb. Sinəsini irəli verib müharibə meydanına girəndə düşməni məğlub edən günədək vuruşacağına and içib. İgid əsgər Füzuli uğrunda gedən döyüşlərdə mərdlik göstərərək dığalara ağır zərbələr vurub, bir-birindən çətin döyüş əməliyyatlarında fərqlənib.

14 avqust 1993-cu ildə isə Qizilqaya yüksəkliyində əsgər yoldaşları ilə bərabər ermənilər tərəfindən 3-4 gün mühasirədə qalmaqla ağır döyüşdən sonra orada itkin düşüb.1997-ci ildə Lerik Rayon məhkəməsi tərəfindən Azad Muxtar oğlu Bayramova şəhid statusu verilib. Vətən, torpaq uğrunda şəhid olanlar ölmürlər. Azad Bayramov cismən aramızda olmasa da, göstərdiyi qəhrəmanlıqla mənən milyonların ürəyində yaşayır, hər an böyük məhəbbətlə ehtiramla xatırlanır. Doğma Siyov kəndində onun adına bulaq abidə kompleksi ucalır. Bu saf sulu bulaqdan içənlər Azadla qürur duyurlar.

*Zəfər Orucoğlu,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

## Siyəzən rayonu üzrə istehlak bazarı

***Siyəzən rayonunda 2025-ci ilin yanvar-iyun aylarında istehlakçıların tələbatının ödənilməsi məqsədilə satılmış malların və göstərilmiş xidmətlərin dəyəri 72720,1 min manat olmaqla 2024-cü ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 1,8 faiz azalmışdır.***

Qeyri-dövlət sektorunun təsərrüfat subyektləri tərəfindən satılmış malların və göstərilmiş xidmətlərin dəyəri 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 5,2 faiz artaraq 68311,0 min manat olmuş, onun 74,4 faizi fərdi sahibkarların fəaliyyəti sayəsində formalaşmışdır.

*Siyəzən Rayon Statistika İdarəsinin rəisi*
*Kamil Xəlilov*

## Ucarda ictimai iaşə xidmətləri

***2025-ci ilin yanvar-iyun aylarında ictimai iaşə dövriyyəsi 2024-cü ilin eyni dövrü ilə müqayisədə real ifadədə 14,3 faiz artaraq 7325,0 min manat olmuşdur.***

Özəl sektorda göstərilən iaşə xidmətlərinin 23,4 faizi hüquqi şəxs statuslu müəssisələrin, 76,6 faizi isə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fərdi sahibkarların iaşə fəaliyyəti nəticəsində formalaşmışdır.

*Ucar Rayon Statistika idarəsinin*
*baş məsləhətçisi Tural Əzizli*

## 2025-ci ilin yanvar-iyun aylarında Ağdaş rayonunun makroiqtisadi göstəriciləri

***2025-ci ilin yanvar-iyun aylarında rayonda iqtisadiyyatın əsas sahələri üzrə 259 milyon 912,5 min manatlıq məhsul və xidmətlər istehsal olunmuşdur. Bu göstərici əvvəlki ilin eyni dövrü ilə müqayisədə müqayisəli qiymətlərlə 3,7 faiz azdır.***

Bu dövrdə ümumu məhsul buraxılışı müqayisəli qiymətlərlə əvvəlki ilin eyni dövrü ilə müqayisədə ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində 1,8 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 0,7 faiz artmış, nəqliyyat və anbar təsərrüfatı sahəsində 0,3 faiz, sənaye sahəsində 12,5 faiz, tikinti sahəsində 20,5 faiz, informasiya və rabitə sahəsində isə 78,6 faiz azalmışdır.

Ümumi məhsul buraxılışının 50,9 faizi kənd təsərrüfatı, 21,0 faizi ticarət xidməti və nəqliyyat vasitələrinin təmiri, 20,0 faizi sənaye, 6,6 faizi tikinti, 1,4 faizi nəqliyyat və anbar təsərrüfatı, 0,1 faizi isə informasiya və rabitə xidmətləri sahəsində yaranmışdır.

Məhsul və xidmətlərin 66,0 faizi istehsal sahələrinin, 34,0 faizi isə xidmət sahələrinin payına düşmüşdür.

*Ağdaş Rayon Statistika İdarəsi*

31_27 IYUl-QARA.qxd 8/21/2025 11:29 PM Page 15



# Ukrayna Putin-Zelenski görüşü üçün yeni yerlər təklif etdi

***Vatikan, Cenevrə, İstanbul və Səudiyyə Ərəbistanı Rusiya, ABŞ və Ukrayna prezidentləri arasında mümkün görüşün keçiriləcəyi yerlər kimi nəzərdən keçirilir.***

"Unikal" xəbər verir ki, bu barədə Ukrayna prezident aparatının rəhbəri Andriy Yermak açıqlayıb.

Onun sözlərinə görə, son günlər adı hallanan Budapeşt prioritet variant deyil: "Görüşün hələ harada baş verəcəyini bilmirik. Siyahıda müxtəlif yerlər var: Cenevrə, İstanbul, Vatikan, Səudiyyə Ərəbistanı. Budapeşt təbii ki, 1994-cü ildə yerinə yetirilməmiş razılaşmanın xatirəsinə adlandırılıb, lakin bu yerə üstünlük verilmir".

Diplomat qeyd edib ki, Rusiya lideri Vladimir Putin və Ukrayna prezidenti Volodimir Zelenski arasında ikitərəfli danışıqların başlaması gözlənilir və bundan sonra Donald Trampla üçtərəfli sammitin baş tutması mümkündür .

O, həmçinin bildirib ki, Moskva görüşün keçiriləcəyi yer kimi nəzərdən keçirilmir.

# "Beyinsiz Qall xoruzu" - Medvedevdən Makrona

***Rusiya Ukraynada "sülhməramlılar" adı altında heç bir NATO qoşununu qəbul etmir və belə təhlükəsizlik zəmanətlərinə ehtiyac duymur.***

"Unikal" xəbər verir ki, bunu Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev deyib.

"Beyinsiz Qall xoruzu Ukraynaya qoşun yeritmək fikrindən vaz keçmir. Açıq-aşkar bildirildi: sülhməramlı kimi NATO hərbçiləri yoxdur. Rusiya belə təhlükəsizlik təminatlarını qəbul etməyəcək. Amma bu yazıq quş qarğaların şahı olduğunu sübuta yetirməkdə davam edir", - Medvedev X-də yazıb.

Bundan əvvəl Fransa prezidenti Emmanuel Makron bəyan etmişdi ki, Fransa və Böyük Britaniyanın təşəbbüsü ilə yaradılmış "könüllülər koalisiyası" gələcək təhlükəsizlik təminatları çərçivəsində Ukraynada dəstək qüvvələrini yerləşdirməlidir.

# Tarixdə ilk dəfə "atom sammiti" keçiriləcək

***Bəşər tarixində "atom sammiti" ilk dəfə sentyabrın 25-də Moskvada keçiriləcək.***

"Unikal" xəbər verir ki, bu barədə "Rosatom" dövlət korporasiyasının baş direktoru Aleksey Lixaçev açıqlayıb.

"Prezident tam icazə verdi. Sentyabrın 25-də Moskvada bəşər tarixində ilk atom sammiti keçiriləcək", - baş direktor Rusiya atom sənayesinin 80 illiyinə həsr olunmuş tədbirlər proqramı ilə bağlı sualı cavablandırarkən deyib.

# "Putin-Zelenski görüşü Trampın fantaziyasıdır" - Lavrov

***Rusiya prezidenti Vladimir Putin ukraynalı həmkarı Volodimir Zelenski ilə görüşməyi planlaşdırmır.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiyanın xarici işlər naziri Sergey Lavrov açıqlayıb.

"Düşünürəm ki, avqustun sonunadək Zelenski ilə Putin arasında görüş ehtimalı sıfıra bərabərdir. Şanslar da son dərəcə kiçikdir və ya sonradan yox dərəcəsindədir. Putinlə Zelenski arasında baş tutacaq sammit Trampın fantaziyasından başqa bir şey deyil. O, yəqin ki, Putinin mövqeyini ya səhv başa düşüb, ya da yanlış yola yönəlib", - Rusiya XİN rəhbəri bildirib.

Daha əvvəl Kremlin köməkçisi Yuri Uşakov bildirib ki, Putin və Tramp Rusiya-Ukrayna müharibəsi ilə bağlı danışıqlarda nümayəndələrin səviyyəsinin artırılması ideyasını müzakirə ediblər.

Ağ Evin mətbuat katibi Karolin Levitt deyib ki, bununla Putin Zelenski ilə ikitərəfli görüşə razılaşıb.

# "Erməni-Amerika şirkəti yola nəzarət etməyəcək" - Paşinyan



***"Erməni-Amerika şirkəti yola nəzarət etməyəcək, onu idarə edəcək, yəni biznes idarəçiliyini həyata keçirəcək".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın Baş naziri Nikol Paşinyan jurnalistlərə açıqlamasında deyib.

"Dəmir yolu bir çox yaşayış məntəqələrimizdən, yollarımızdan keçir, onlarla, hətta yüzlərlə yerdə keçid məntəqələri var. Nə vaxtsa həmin dəmir yolundan keçərkən hansısa erməni, iran, gürcü və ya avropalı avtomobil hər hansı problemlə üzləşirmi? Xeyr, çünki bura Ermənistan Respublikasının yurisdiksiyasının ərazisidir", - deyə o qeyd edib.

Paşinyan Vaşinqton sənədində yer alan və qarşılıqlı faydadan bəhs edən qarşılıqlılıq prinsipinə də diqqət çəkib: "Yeri gəlmişkən, biz heç vaxt deməmişik ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında ünsiyyətə əngəl törədəcəyik. Vaşinqton Bəyannaməsində qeyd olunur ki, Azərbaycanın üstünlüyü, yəni əlaqənin olmasının üstünlüyü yuxarıda qeyd olunan prinsiplər çərçivəsində vurğulanır".

# FTX azərbaycanlını sərhəddə saxladı

***Xəbər verdiyimiz kimi, Azərbaycan vətəndaşı Rufullayev Yadulla Ramiz oğlu Dağıstanda sərhədi keçməyə çalışarkən Rusiya FTX tərəfindən saxlanılıb.***

"Unikal" xəbər verir ki, xüsusi xidmətin məlumatına görə, 1989-cu il təvəllüdlü Yadulla Rufullayev Ukrayna Təhlükəsizlik Xidməti tərəfindən işə götürülübmüş.

Faktla bağlı FTX-nin Dağıstan üzrə İstintaq İdarəsi Rusiya Federasiyası Cinayət Məcəlləsinin 276.1-ci ("Rusiya Federasiyasının təhlükəsizliyinə bilə-bilə qarşı yönəlmiş fəaliyyətdə düşmənə kömək göstərmə") maddəsi ilə cinayət işi açıb. Bu maddə ilə cəza 15 ilə qədər həbsdir.

Hazırda cinayətin təşkilində və törədilməsində iştirak edən bütün şəxslərin müəyyən edilməsi, habelə onu sifariş edən şəxslərin müəyyən edilməsi istiqamətində əməliyyat-axtarış tədbirləri davam etdirilir.




# "Tramp yolu"ndan İran da faydalanacaq - Nazirdən açıqlama

***"Biz bütün hərəkətlərimizi dost ölkələrimizə, o cümlədən dost İrana izah etmişik və açıq şəkildə demək lazımdır ki, İran bu yoldan və Ermənistan üzərindən blokadanın götürülməsindən ilk faydalananlardan biri olacaq".***



"Unikal" xəbər verir ki, bunu Ermənistanın iqtisadiyyat naziri Gevorq Papoyan jurnalistlərə açıqlamasında deyib.

Papoyan qeyd edib ki, blokada götürüldükdə və "Tramp yolu" reallaşdıqda İran da Ermənistan, Azərbaycan və Türkiyə ərazisi ilə Avropa İttifaqına dəmir yolu əlaqəsi yaratmaq imkanı əldə edəcək: "Demək istəyirəm ki, bu mənada mən İranın bu yolda bir nömrəli benefisiarlardan biri olacağına çox əminəm".

# "Artsax parlamenti yoxdur" - Erməni nazirdən separatçılara reaksiya



***"Artsax parlamenti yoxdur". "Unikal" xəbər verir ki, bunu Ermənistanın iqtisadiyyat naziri Gevorq Papoyan jurnalistlərə açıqlamasında deyib.***

Nazir dünən "Artsax Milli Assambleyası"nın Qarabağ ermənilərı adından ATƏT-ə üzv dövlətlərə müraciət etməsi ilə bağlı verilən sualı belə cavablandırıb: "Ermənistan Respublikası münaqişəyə xidmət edə bilməz və Ermənistan Respublikasının məqsədi bu dövlətin davamlılığı və bu torpaqda davamlı sülhdür.

Biz Ermənistanı münaqişələrdən çıxaracağıq, artıq onu münaqişələrdən çıxarmışıq. Burada daha müharibə olmayacaq, Ermənistan artıq münaqişələrin tərəfi olmayacaq, yollar açılacaq, iqtisadi inkişaf olacaq, mühacirət olmayacaq.

Biz bununla barışmalıyıq ki, müharibə olmayacaq, sülh olacaq və heç kim xalqımızı və dövlətimizi müxtəlif növ müharibələrə sürükləyə bilməyəcək".

# "Yeni Konstitusiya layihəsi üzərində işləyirik" - Paşinyan

***"Biz Konstitusiya ilə bağlı öz mövqelərimizi bildirmişik. Onu da demişəm ki, ratifikasiya prosesində Konstitusiya Məhkəməmiz indi paraflanmış və yekunda imzalanmış "Sülh müqaviləsi"nin Konstitusiyaya zidd olduğu qənaətinə gəlsə, mən özüm konstitusiya dəyişiklikləri təşəbbüsü ilə çıxış edəcəyəm".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın Baş naziri Nikol Paşinyan deyib.

Onun sözlərinə görə, hazırda bu barədə düşünməyə ehtiyac və ya zərurət yoxdur: "Lakin digər tərəfdən hamıya xatırlatmaq istəyirəm ki, bizim bir vaxtlar 2027-ci ilə qədər son tarix kimi qeyd etdiyim yeni Konstitusiyanın qəbulu ilə bağlı gündəliyimiz var. Biz indi yeni Konstitusiya layihəsi üzərində işləyirik və o hazır olandan sonra çox güman ki, referendum keçirəcəyik".

31_27 IYUl-QARA.qxd 8/21/2025 11:29 PM Page 16



# "Çempionatda rəqabətədavamlı "Kəpəz" görəcəyik" - Adil Şükürov



***"Kəpəz"in baş məşqçisi Adil Şükürov klubun mətbuat xidmətinə müsahibə verib.***

QOL.az xəbər verir ki, o, özü, komandanın hazırkı durumu və hədəfləri barədə danışıb.

***- Adil müəllim, təxminən bir illik fasilədən sonra yenidən "Kəpəz"ə qayıtdınız. Əvvəlki "Kəpəz"lə indiki arasında hansı fərqləri görürsünüz?***

- Yenidən bu böyük klubda olmaq çox qürurvericidir və məsuliyyətlidir. Yeni klub rəhbərliyinə təşəkkür edirəm ki, inanıb bu şansı mənə yenidən verdilər. İnşallah, mən də öz tərəfimdən onu deyə bilərəm ki, "Kəpəz"in daha yaxşı olması üçün bütün gücümlə çalışacağam. Bu mənim üçün bir prinsipdir və inşallah bu il "Kəpəz" əvvəlki olduğum dönəmin kollektivindən üstün olacaq. Bunun üçün başda sədrimiz Adil müəllim, eləcə də Fərman Əlizadə və idarə heyətinin digər üzvləri klubda istənilən imkanları təşkil ediblər. Futbolçuların inkişafı çox vacibdir və "Kəpəz"də də lazım olan şərait var. Komandanın bazası demək olar ki, tam olaraq əsas komandanın ixtiyarına verilib. Yaxın keçmişdə, mənim komandada olduğum dövrdə çox istəyirdim ki, məşqdən əvvəl və sonra komandanın qidalanması təmin olunsun. Komanda üzvləri mənim "Kəpəz"də oynadığım dövrlərdə olduğu kimi, əvvəlcədən bazaya gələrək otaqlarda istirahət edib məşqə çıxsınlar. Yeni rəhbərliyin gəlişindən sonra futbolçuların qidalanması təmin olunub. Komandanın bazada birlikdə daha çox vaxt keçirməsi kollektivin formalaşmasına səbəb olur. Bundan əlavə, sədrimiz bildirib ki, III MDB Oyunlarından sonra Akademiyanın məşq meydançalarında işıqlandırma işləri də həyata keçiriləcək.

***- Kluba yeni rəhbərlik gəlib. Yeni rəhbərliyin fəaliyyətindən sonra hansı dəyişikliklər müşahidə olunur?***

- Yeni rəhbərliyin gəlişindən sonra klubda olan hər kəs daha məsuliyyətli və nəticəyə yönəlik çalışmağa başlayıb. Sədrimiz "Kəpəz" komandasında çalışan hər kəsdən bunu tələb edir və bunun üçün klubda şərait formalaşdırıb. Klubda struktur dəyişikliyindən tutmuş, əsas komandaya verilən dəstəyə qədər hər şey təmin edilib. Akademiya məşqçiləri üçün də bunun əlavə dəstək olunub. Biz də bunun qarşılığında daha çox çalışaraq rəhbərliyin klubda olan istəklərini həyata keçirəcəyik.

***- Heyətin formalaşdırılması və futbolçuların seçim prosesi necə həyata keçirilir? Bu iş kimlər tərəfindən aparılır?***

- Əsas komandanın futbolçularının seçilməsi məşqçilər heyəti tərəfdən aparılır. Gənc və yerli futbolçularla yanaşı, legioner oyunçuların sintezini formalaşdırmağa çalışırıq və bu prosesi davam etdiririk. Bu işdə İdarə Heyətinin üzvü Erkin İbrahimov bizə dəstək olur. Bəzi oyunçuların kollektivə qatılmasında gecikmələr oldu ki, bu da komanda oyununa təsirsiz ötüşmür. Bu da transfer məsələlərində normal haldır. Amma buna baxmayaraq, rəhbərliyin tapşırığını tam həyata keçirəcəyimə inanıram.

***- Transfer pəncərəsinin sonuna hələ vaxt var. Yeni oyunçuların komandaya cəlb olunması planlaşdırılırmı?***

- Bir neçə oyunçu ilə danışıqlarımız davam edir. Yaxın günlərdə bu məsələ də öz həllini tapacaq və ondan sonra biz çempionatda daha rəqabətədavamlı "Kəpəz" görəcəyik. Bunun üçün məşqçilər heyəti olaraq bütün gücümüzü sərf edirik. Sonda "Kəpəz" azarkeşlərinin, "Kəpəz"i sevənlərin gözləntilərini doğruldacağımıza tam inanıram.

# Azərbaycan UEFA-da bu mövsümkü nəticələrə görə neçəncidir?

***2025/26 mövsümündə Azərbaycan UEFA-nın klub reytinqində ən çox əmsal toplayan ölkələr sırasında 7-ci yeri tutur. Bunlar yarışın təsnifat mərhələlərinə aiddir.***

Bu mövsüm Azərbaycanın 4 klubu reytinqə daha 2.375 əmsal əlavə edib. Eyni əmsalı 6-cı yerdə qərarlaşmış İsrail də toplayıb. Bu mövsüm təsnifat mərhələlərində ən çox əmsalı isə Kipr komandaları yığıb (3,625).



Azərbaycanın qazandığı əmsallardan ən çoxu "Qarabağ"ım payına düşür - 1,250. "Sabah" 0,625, "Araz Naxçıvan" 0,375, "Zirə" isə 0,125 əmsal toplayıb. 4 klubumuzdan "Qarabağ" istisna olmaqla digər 3 komanda yarışlarda mübarizəni dayandırıb.

Son 5 mövsümün nəticələrinə əsasən isə Azərbaycan 19,500 əmsalla 28-ci yeri tutur. Birinci yerdə isə İngiltərədir (94,839 əmsal).

# Qadın güləşçimiz dünya çempionatında gümüş medal qazandı



**Azərbaycanın qadın güləşçisi Bolqarıstanın Samokov şəhərində keçirilən U-20 dünya çempionatında gümüş medal qazanıb.**

"Unikal" xəbər verir ki, yarışın beşinci günündə Ruzanna Məmmədova (62 kq) fəxri kürsünün ikinci pilləsinə qalxıb.

O, finalda çinli Yanqjen Yanqjenə sonuncu xal prinsipinə əsasən (6:6) məğlub olub.

Qeyd edək ki, daha əvvəl qadın güləşçilərdən Günay Qurbanova (59 kq) bürünc medal qazanıb.

# Salah: "Qələbəyə acam"



***"Liverpul"un misirli hücumçusu Məhəmməd Salah klub ilə müqaviləsini uzatmasından danışıb.***

QOL.az "mersisaydlılar"ın saytına istinadən xəbər verir ki, 33 yaşlı forvard hələ daha çox uğur qazanmaq istədiyini deyib: "Qələbə qazanmaq üçün hələ çox acam. Buna görə də "Liverpul"la iki illik müqavilə imzaladım. Premyer Liqada, bu səviyyədə oynamaq əladır. Həmçinin, 33 yaşımda olsam da, komandaya daha çox şey verə biləcəyimi hiss edirəm. Bu, məni qürurlandırır. Çünki çox çalışıram".

Qeyd edək ki, misirli futbolçu "Liverpul"la 2 illik müqavilə imzalayıb. O, 2017-ci ildən "Liverpul"da çıxış edir.

# "Çelsi" onu icarə verməyə yaxındır



***"Çelsi" hücumçusu Nikolas Ceksonu icarəyə verməyə yaxındır.***

QOL.az xəbər verir ki, bu barədə jurnalist Ben Ceykobs "X" (əvvəlki "Twitter") sosial şəbəkəsində məlumat verib.

İcarənin qiyməti 10 milyon funt sterlinq (təxminən 11,5 milyon avro) olacaq. Maraqlanan klublara futbolçunun icarəyə verilə biləcəyini və bu icarənin məcburi satınalma öhdəliyi ilə müşayiət olunacağını bildirib.

Hazırda "Aston Villa" futbolçunu transfer etmək imkanını nəzərdən keçirir. Həmçinin onun "Nyukasl" və ya "Milan"a keçidi də istisna olunmur.

Qeyd olunur ki, "Çelsi" oyunçu üçün tələblərini aşağı salarsa, Ceksona olan maraq daha da artacaq. Hazırda londonlular hücumçunu 80 milyon funt sterlinqə (92,8 milyon avro) satmaq istəyirlər.

Xatırladaq ki, Nikolas Cekson 2023-cü ilin yayında "Vilyarreal"dan "Çelsi"yə keçib. Bu müddətdə o, 81 oyunda iştirak edib, 30 qol vurub və 12 məhsuldar ötürmə edib. Futbolçunun klubla müqaviləsi 2033-cü ilin yayına qədər qüvvədədir.

# AFFA "Qəbələ"ni cərimələdi



***AFFA İntizam Komitəsinin Misli Premyer Liqasında yeni mövsümün ilk turunun oyunları ilə bağlı qərarları açıqlanıb.***

"Unikal" xəbər verir ki, "Qəbələ" klubu 700 manat cərimə edilib. Buna səbəb "qırmızı-qaralar"ın dörd futbolçusunun ilk turda "Karvan"la keçirilən oyunda sarı vərəqə almasıdır.

Xatırladaq ki, mövsümün açılış qarşılaşması 1:1 hesablı bərabərliklə yekunlaşıb.